Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 277 (8004) ŞƏNBƏ, 8 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## İlham Əliyevin iqtisadi siyasəti şəffaf biznes mühiti formalaşdırıb

### Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələri sırasındadır

Bazar iqtisadiyyatının ayrılmaz atributlarından olan, azad rəqabətin yaradıldığı şəraitdə sürətlə inkişaf edən sahibkarlıq təkcə cəmiyyətin yox, konkret halda götürülmüş müəyyən toplumun və ya fərdin inkişafında özünəməxsus mühüm rol oynayır.

İlk növbədə ona görə ki, sahibkarlıq insan şəxsiyyətinin ifadə forması və inkişafı, onun qabiliyyət və tələbatları, əmək potensialının realizasiyası kimi mühüm məqamları özündə ehtiva edir. Ən əsası, sahibkarlıq ümumi inkişafda mühüm çəkiyə malik olaraq iqtisadi tərəqqinin daha sürətli xarakter almasına kifayət qədər önəmli sayılan və bu tərəqqinin əsasına çevrilən möhtəşəm töhfələr verir. Bu mənada iqtisadi yüksəliş yolunu azad bazar münasibətləri şəraitində həyata keçirən hər bir dövlət üçün sahibkarlıq institutunun inkişafı xüsusi əhəmiyyət kəsb edir, iqtisadi siyasət strategiyasının ən önəmli hissələrindən birinə çevrilir.

Təqdirəlayiq haldır ki, Azərbaycanın yeni müstəqillik tarixində iqtisadi inkişafı xarakterizə edən ən mühüm cəhətlərdən biri odur ki, ölkəmizdə məhz güclü sahibkarlar sinfi formalaşır. Bu gün Azərbaycanda ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi aydın hiss olunur, iqtisadi artımın təminatında sahibkarlar sinfinin mövqeyi davamlı şəkildə güclənir. Dövlət tərəfindən sahibkarlığın inkişafına yaradılan şərait və müxtəlif formalarda verilən dəstək, eyni zamanda, sözügedən institutun daha sürətli tərəqqisi məqsədilə sistem halında ardıcıllıq prinsipi ilə həyata keçirilən, bir-birini tamamlayan iqtisadi islahatlar sahibkarlıq təsərrüfatlarının ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan subyektlərdən biri olaraq çıxış etməsinə möhkəm bazis yaradıb.

Xüsusilə qeyd edilməlidir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət sahibkarlığın inkişafında, yerli istehsal və sosial infrastrukturun yaradılmasında, güzəştli kreditlərin ayrılmasında, insan kapitalı və təbii ehtiyatlardan səmərəli istifadə yolu ilə mövcud potensialın reallaşdırılmasında, yerli və xarici investorların ölkəyə, xüsusilə regionlara cəlb olunmasında yeni bir səhifə açıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə zamanın tələblərinə uyğun şəkildə aparılan islahatlar daha geniş vüsət alaraq həm də sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni bir mərhələnin əsasını qoyub. Bu kontekstdə ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

Görülmüş tədbirlər nəticəsində 2003-2017-ci illərdə ölkəmizin qeyri-neft məhsulları ixracı 4,1, ixrac olunan mal çeşidlərinin sayı 2,6 dəfə artmışdır. Eyni zamanda, sahibkarlıq subyektlərinin sayı 4,2, hüquqi şəxslərin sayı 1,9, kiçik müəssisələrin sayı 2, fərdi sahibkarların sayı 5 dəfə çoxalıb. Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur.

Ardı 6-cı səh.

## Rusiya KİV: “Putin məhz Əliyevin əhatəsində oturdu və onunla səmimi söhbətlər, zarafatlar etdi”



Xarici media Rusiya və Azərbaycan prezidentlərinin münasibətlərinin yüksək səviyyəsini xüsusi vurğulayır, fotolar paylaşır

Bax: səh. 3

## <u>Hikmət HACIYEV:</u> “MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçdi”

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı və tədbirin əhəmiyyəti barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

**- Dekabrın 6-da MDB dövlət başçılarının Sankt-Peterburq şəhərində qeyri-rəsmi Zirvə toplantısı keçirildi. Prezident İlham Əliyev Zirvə toplantısında iştirak etdi. Bu tədbirin əhəmiyyəti və müzakirə olunan məsələlər barədə nə deyərdiniz?**

- Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə dekabrın 6-da Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirak etdi. Keçən il isə MDB dövlətlərinin qeyri-rəsmi Zirvə toplantısı Moskvada keçirilib. Bu qəbildən olan zirvə toplantılarında MDB çərçivəsində il ərzində görülən işlər barədə geniş fikir mübadiləsi aparılır və gələcək fəaliyyət istiqamətləri ətraflı müzakirə olunur. Bu dəfə də keçirilən qeyri-rəsmi Zirvə toplantısı əsnasında eyni məqsədlər güdülürdü. MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü də işgüzar və səmimi şəraitdə keçdi, dövlət başçıları birlikdə nahar etdilər və sonra Mariinski Teatrında “Şelkunçik” balet tamaşasına baxdılar. Bir məqama da toxunmaq istərdim ki, tamaşa zamanı Prezident İlham Əliyev tədbirə evsahibliyi edən Prezident Vladimir Putinin yanında sağda əyləşmişdi. Bu, dövlətimizin başçısına və onun şəxsiyyətinə xüsusi hörmətin və ehtiramın əlamətidir.

Zirvə görüşündə Prezident İlham Əliyevin tədbirdə iştirak edən bütün dövlət başçıları ilə qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında məzmunlu söhbəti və müzakirələri oldu.

**- Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də müzakirələr aparıldımı?**

- Bəli. Tədbir əsnasında Prezident İlham Əliyevin Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də söhbəti oldu. Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə fəal danışıqların davam etdirilməsi və atəşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparıldı. Nəzərə almaq lazımdır ki, bu iki amil bir-biri ilə sıx şəkildə bağlıdır və biri digərini tamamlayacaq şəkildə davam etdirilməlidir. Son dövrlərdə qoşunların təmas xətti və dövlət sərhədi boyunca nisbi sakitlik mövcuddur. Bu da münaqişənin həlli üzrə substantiv və intensiv danışıqların aparılması üçün yaxşı fon yaradır. Bu, əsla münaqişənin dondurulması və ya qəbuledilməz olan status-kvonun saxlanması anlamına gəlməməlidir. Qəti mövqeyimiz ondan ibarətdir ki, işğala əsaslanan status-kvo tezliklə dəyişdirilməlidir. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də dövlət başçıları səviyyəsində status-kvonun dəyişdirilməsinin vacibliyini dəfələrlə vurğulayıblar. Münaqişənin həlli üzrə danışıqlar nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır.

Eyni zamanda, söhbət çərçivəsində Ermənistan və Azərbaycan arasında saxlanılan şəxslərin qarşılıqlı şəkildə dəyişdirilməsi məsələsi də müzakirə olundu.

Ardı 4-cü səh.



## Milli Məclisdən Dövlət Dumasına çağırış:

## «Ermənipərəst mövqelərə qarşı çıxın»

Milli Məclisin dünən keçirilən növbəti plenar iclası tarixi bir gündə reallaşdı. Çünki müsəlman Şərqində ilk parlamentin birinci iclasının açılışı da düz yüz il öncə - 1918-ci il dekabrın 7-də keçirilmişdi. Bütün deputatları parlamentin 100 yaşı, bu tarixi gün münasibətilə təbrik edən Milli Məclisin Sədri Oqtay Əsədov iclası açıq elan etdi və gündəliyə 21 məsələnin daxil edildiyini söylədi. Spiker öncə cari məsələlərin müzakirəsinə vaxt ayırdı.

### Konstantin Zatulin erməni lobbisinə xidmət edir

İlk çıxış edən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulinin İrəvanda “Lazarev klubu”nun iclasında Azərbaycana qarşı səsləndirdiyi fikirlər ciddi narahatlıq doğurur: “Uzun illərdir ki, Zatulin erməni lobbiçiliyi ilə məşğul olur. O, sıravı deputat olsaydı, bizi narahat etməzdi.

Ardı 2-ci səh.

## Azərbaycanın altıncı ticarət evi

### Yeni ünvan Polşadadır

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, respublikada istehsal edilən məhsulların ixracının təşviqi və genişləndirilməsi, “Made in Azerbaijan” brendinin xarici ölkələrdə tanıdılması, satışının təşkili və əlaqələndirilməsi məqsədilə xarici ölkələrdə ticarət evlərinin yaradılması prosesi davam etdirilir.

### Polşada Azərbaycan məhsullarına maraq artır

Qeyd edək ki, indiyədək Azərbaycanın Rusiya, Belarus, Ukrayna, Çin və Latviyada ticarət evləri fəaliyyətə başlayıb. Altıncı ticarət evi isə dekabrın 6-da Polşanın paytaxtı Varşavada açıldı.

İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycan Ticarət Evi “Made in Azerbaijan” brendinin Polşa bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, yerli məhsullarımızın Polşada satışını təşkil edəcək, sahibkarlar arasında bu sahədə əlaqələndirməni həyata keçirəcəkdir.

Ardı 3-cü səh.




Qeyri-neft sektorunda aparılan islahatların uğurlu nəticələri məhsul ixracında da özünü göstərir. Xüsusilə aqrar sektorda istehsalın artması ölkəmizin ixrac potensialını xeyli genişləndirib. Bu, ölkənin ümumi inkişafı ilə yanaşı, həm də bölgədəki əhalinin məşğulluğu və rifahı baxımından çox əhəmiyyətlidir.



## 1,3 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac edilib

Üstəlik aqrar sektorun ərzaq təhlükəsizliyinin qarantı və buna görə də strateji əhəmiyyət daşıdığını da unutmaq olmaz. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”nın cari ilin noyabr ayı üzrə dərc edilən məlumatda bildirilir ki, 10 ay ərzində qeyri-neft sektoru üzrə 1 milyard 351 milyon dollarlıq məhsul ixrac olunub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 132 milyon dollarlıq çoxdur. Cari ilin 10 ayı ərzində Rusiyaya 467,1 milyon, Türkiyəyə 293,8 milyon, İsveçrəyə 114,4 milyon, Gürcüstana 106,5 milyon və Qazaxıstana 38,4 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

### Aqrar sektora dövlət dəstəyi səmərəsini verir

Aqrar sektora dövlət tərəfindən verilən dəstək, aparılan islahatlar nəticəsiz qalmayıb. Bunun sayəsində yanvar-oktyabr ayları ərzində ixrac edilən qeyri-neft məhsullarının siyahısında pomidor ixracı 149,9 milyon dollarla ilk yerdə olub. İkinci və üçüncü yerlərdə isə müvafiq olaraq qızıl və kütləsi 0,94-dən az olan ilkin formalı polietilen qərarlaşıb. Ümumiyyətlə, bu ilin yanvar-oktyabr ayları ərzində meyvə-tərəvəz ixracı 405,5 milyon dollarlıq olmaqla qeyri-neft məhsulları ixracında birinci yeri tutub. Bundan sonrakı yerləri plastmas və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar, elektrik enerjisi, qara metallar və onlardan hazırlanan məmulatlar, pambıq lifi, kimya sənayesi məhsulları, pambıq ipliyi bölüşür.

Ardı 3-cü səh.

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 4, maddə 524, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12, I kitab, maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 987.1-ci maddənin ikinci cümləsinə "buraxmış" sözündən sonra ", tərtib etmiş" sözləri əlavə edilsin.

**2.** 992-ci maddəyə "investisiya fond payı" sözlərindən sonra "və daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı" sözləri əlavə edilsin.

**3.** 993.1-ci maddənin birinci cümləsində "Sənədsiz" sözü "Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz" sözləri ilə əvəz edilsin.

**4.** 993.3-cü maddədə "sənədsiz qiymətli kağızı" sözləri "daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağızları" sözləri ilə əvəz edilsin.

**5.** 996.1-ci maddənin birinci cümləsində "Sənədsiz" sözü "Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz" sözləri ilə əvəz edilsin və ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağızlara tətbiq edilmir.".

**6.** Aşağıdakı məzmunda 996.2-1-ci maddə əlavə edilsin:

"996.2-1. İpoteka kağızına mülkiyyət hüququnun yaranması, ipoteka kağızının dövlət qeydiyyatı, ipoteka kağızı üzrə hüquqların ötürülməsi (tədavülü) və ipoteka kağızına xitam verilməsi "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı yalnız elektron sənəd formasında tərtib olunur. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqlar bu məcəllənin 1078-20.11-ci maddəsi ilə müəyyən edilmiş tələblərin elektron qaydada təmin edilməsi yolu ilə ötürülür.".

**7.** Aşağıdakı məzmunda 1078-2.2-1-ci maddə əlavə edilsin:

"1078-2.2-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı mülkiyyətçisinə ipoteka müqaviləsində göstərilən, daşınmaz əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və daşınmaz əmlakın ipotekası haqqında müqavilədə göstərilən ipoteka hüququnu təsdiq edən sənədsiz adlı qiymətli kağızdır.".

**8.** 1078-2.4-cü maddədə "Əmlakın" sözü "Bu məcəllənin 996.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, əmlakın" sözləri ilə əvəz edilsin.

**9.** 1078-2.6-cı maddədə "girov kağızında və ya ipoteka kağızında yazdığı" sözləri "girov kağızı və ya ipoteka kağızı üzrə" sözləri ilə əvəz edilsin.

**10.** 1078-2.9-cu maddəyə "ipoteka kağızına" sözlərindən sonra "(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)" sözləri əlavə edilsin.

**11.** 1078-20.9-cu maddənin birinci cümləsinə və 1078-21.7-ci maddəyə "ipoteka" sözündən sonra "(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)" sözləri və həmin maddələrin sonuna müvafiq olaraq aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqların ötürülməsi bu məcəllənin 996.2-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.".

**12.** 1078-20.11-ci maddədə "İndossament" sözü "Bu məcəllənin 996.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, indossament" sözləri ilə əvəz edilsin.

**13.** 1078-21.4-cü və 1078-22.2-ci maddələrdə "Sənədsiz" sözü "Bu məcəllənin 996.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, digər sənədsiz" sözləri ilə əvəz edilsin.

**14.** 1078-23.5-ci maddədə "ipoteka kağızının" sözlərindən sonra "(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)" sözləri əlavə edilsin.

**15.** 1078-27.2-ci maddədə "Dövlət" sözü "Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər dövlət" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1297-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1297-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidentinin Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2018-ci il*

# Milli Məclisdən Dövlət Dumasına çağırış:

# «Ermənipərəst mövqelərə qarşı çıxın»

*Əvvəli 1-ci səh.*

Lakin Dumada təmsilçiliyini nəzərə alsaq, belə halların baş verməsi qəbuledilməzdir. Hazırda ölkələrimizin siyasətlərinə uyğun olaraq parlament münasibətləri yüksələn xətlə inkişaf edir. Bu baxımdan Rusiya Dövlət Dumasına müraciət göndərilməlidir. Bu, belə davam edə bilməz".

Komitə sədrinin sözlərinə görə, "Lazerev klubu"nda siyasi korrupsiyaya qoşulmuş ekspertlər təmsil olunur və bu səbəbdən də İrəvanda keçirilən iclas Rusiyanın rəsmi mövqeyi deyil: "Son zamanlar Rusiya elitasının üzvləri, siyasətçilər, diplomatlar, hərbi ekspertlər Azərbaycanda olub və Dağlıq Qarabağın Azərbaycanın tarixi torpaqları olduğu haqqında fikirlər söyləyiblər. Lakin Zatulinin belə bir addımı uğursuz cavab cəhdidir".

Bütün bunlara baxmayaraq, Əli Hüseynli hesab edir ki, istənilən təxribat Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirə bilməz. Zatulinin bu addımı Ermənistanla Rusiya arasında soyuq münasibətlərə neqativ ruh verməkdən başqa bir şey deyil.

### Zatulin hər zaman Azərbaycana qarşı düşmən mövqe tutub

Parlamentin Sədri Oqtay Əsədov diqqətə çatdırdı ki, Rusiya Dövlət Dumasının deputatı Konstantin Zatulin barəsində çox şey demək olar. Zatulin deputat olmamışdan öncə də Azərbaycana qarşı düşmən mövqe tutan insanlardan biri idi: "O, həmişə erməni diasporunun dəstəyi ilə çalışıb. Parlamentə seçildiyi regionda da erməni diasporu ona dəstək verib".

Spiker vurğuladı ki, "Lazerev klubu"nda bir neçə rusiyalıdan başqa erməni mənşəllilər də təmsil olunurlar: "Lazerevin kökü ermənidir. O vaxt Azərbaycanda qırğınlar törədənlərdən biri olub. Belə cılız hərəkətlərlə Azərbaycan-Rusiya münasibətlərini poza bilməzlər. Mən artıq Rusiya Federasiyası Dövlət Dumasının sədri Vyaçeslav Volodinə məktub yazmışam. Yəqin ki, ölçü götürüləcək".

### "Lazerev klubu" radikal erməni klubudur

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev isə hesab edir ki, Azərbaycan və Rusiya prezidentləri arasında çox yaxşı dostluq münasibətləri var. İki dövlət strateji tərəfdaşdır və istənilən sahədə çoxşaxəli münasibətlər yeni inkişaf mərhələsindədir. Ancaq Konstantin Zatulin kimi insanlar bu münasibətlərə xələl gətirməyə çalışırlar: "Reallıq bundan ibarətdir ki, Zatulin kimi şəxslər öz şəxsi məqsədlərini güdürlər. Zatulin qeyd edir ki, ilk dəfə Dağlıq Qarabağa 1994-cü ildə Robert Koçaryanla bir vertolyotda gəlib. Təsəvvür edin, bu adam ağır cinayətlərdə iştirak etmiş şəxslə Dağlıq Qarabağa gəlir və bu gün bəyan edir ki, Dağlıq Qarabağ ətrafındakı rayonları Azərbaycana qaytarmaq olmaz, Ermənistan yalnız Dağlıq Qarabağın müstəqilliyi uğrunda mübarizə aparmalıdır. Bununla da o, Düşənbədə əldə olunmuş razılığa və Rusiya Prezidentinin təşəbbüsü ilə aparılan işlərə kölgə salmağa cəhd edir. Hesab edirəm ki, hər iki tərəfdən rəsmi münasibət bildirilməlidir".

Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli isə deyir ki, "Lazerev klubu" radikal erməni klubudur. Bu klub açıq-aşkar düşmənçiliyin daha da böyüməsi üçün çirkin kampaniya həyata keçirir. Səsləndirilən fikirlər isə regionda gərginliyin artmasına, qarşıdurma yaratmağa sövq edir. Ancaq Azərbaycan-Rusiya münasibətləri hər kəsə bəllidir. Heç bir qüvvə bu isti münasibətlərə xələl gətirə bilməyəcək.

Deputatlardan Cavid Qurbanov, Fərəc Quliyev, Zahid Oruc, Sahib Alıyev, Araz Əlizadə çıxış edərək bildirdilər ki,





















İrəvanda "Lazerev klubu"nun məlum toplantısı zamanı ATƏT-in Minsk qrupunda bir vaxtlar Rusiyanı təmsil edən Vladimir Kazimirov da çıxış edib. Onlar Azərbaycana qarşı qərəzli, bədnam mövqelər sərgiləyirlər.

Ancaq deputatlar hesab edirlər ki, Azərbaycan-Rusiya münasibətlərinə belə cılız məsələlərlə təsir göstərmək olmaz. Konstantin Zatulinin ermənipərəst bir şəxs olduğu hər kəsə bəllidir.

### Dövlətlərarası münasibətlərdən başqaları yararlanır

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, Azərbaycanla Rusiya arasındakı münasibətlər hər kəsə bəllidir: "Bu gün Azərbaycan-Rusiya arasında çox gözəl münasibətlər var. Lakin bundan bəhrələnən kimlərdir? Əlbəttə ki, Rusiyada fəaliyyət göstərən azərbaycanlılar. O zaman sual olunur, niyə onlar belə məsələlərdə öz mövqelərini bildirmirlər? İrəvanda keçirilən məlum toplantıda erməni dövlətinin rolu yoxdur. Bu, erməni diasporunun fəaliyyətidir. Rusiyada dərc olunan jurnallarda Azərbaycan milyonçularının siyahısı çıxır. Amma bu gün Rusiyada səfirlikdən, Heydər Əliyev Fondu və Gənclər Fondundan başqa kimlər tədbirlər təşkil edir? Axı, bu milyonçular yaxşı münasibətlər əsasında qazanc əldə edirlər".

S.Novruzovun sözlərinə görə, ölkəmizdə bəzi antiazərbaycançı qüvvələr Rusiyada yaşayan milyonçu azərbaycanlılar tərəfindən maliyyələşdirilir: "Rusiya parlamentində bir dənə Zatulin var. Amma başqa çoxsaylı deputatlar da var. Onlar dəvət edilməli, Azərbaycanın mövqeyi dəstəklənməlidir. Rusiyada yaşayan milyonçu azərbaycanlılar öz məsuliyyətlərini dərk etməlidirlər".

### Deputatlara yubiley medalları veriləcək

Deputat Fazil Mustafa isə təklif etdi ki, cümhuriyyətin 100 illiyi ilə bağlı hazırlanan yubiley medalları Milli Məclisin iclas zalında təntənəli şəkildə təqdim olunsun.

Spiker Oqtay Əsədov deputatın təklifinə cavab verərək dedi ki, yubiley medalı artıq hazırdı. Medal Milli Məclisin yaxın vaxtlarda keçiriləcək plenar iclaslarının birində, Dünya Azərbaycanlılarının Həmrəylik Gününə yaxın bir zamanda deputatlara təqdim ediləcək.

### Psixoloqlar şurası yaradılacaq

Cari məsələlərə baxıldıqdan sonra gündəlikdəki layihələrin müzakirəsinə başlanıldı. İlk olaraq deputatlar "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu haqqında (ikinci səsvermə) sənədi təsdiqlədilər. Həmçinin "Aviasiya haqqında", "Dövlət borcu haqqında", Cinayət-Prosessual və İnzibati Xətalar məcəllələrində dəyişikliklər edilməsi haqqında, "İnzibati icraat haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda səsverməyə qoyularaq qəbul edildi.

"Psixoloji yardım haqqında" qanun layihəsini üçüncü - yekun oxunuşda parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim etdi. Bildirildi ki, 6 fəsil, 22 maddədən ibarət olan qanun layihəsi Azərbaycanda psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını, psixoloji yardım alan şəxslərin və psixoloqların hüquqlarını və vəzifələrini müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

Layihə ilə Azərbaycanda ödənişsiz psixoloji yardım alacaq şəxslərin kateqoriyası müəyyənləşib. Qanunun 6-cı (psixoloji yardımın maliyyələşdirilməsi) maddəsinə əsasən, psixoloji yardım dövlət büdcəsinin vəsaiti hesabına (ödənişsiz) və ya yardım alan şəxsin vəsaiti hesabına (ödənişli) həyata keçirilir. Bəzi kateqoriyaya aid insanlar isə ödənişsiz psixoloji yardım alacaqlar. Layihəyə əsasən, Azərbaycanda psixoloqlar şurası yaradılacaq. Şura ictimai əsaslarla fəaliyyət göstərəcək və yüksək ixtisaslı psixoloqlardan, müxtəlif sahələrdə psixoloji xidmət göstərən dövlət orqanlarının nümayəndələrindən formalaşacaq. Şuranın 7 üzvü olacaq. Şuranın fəaliyyəti, hüquq və vəzifələri, üzvlərin təyin olunması və idarə edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiqlənən "Azərbaycan Psixoloqlar Şurası haqqında Əsasnamə" ilə müəyyən edilir.

Layihə səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi.

### Dövlət agentliyinin səlahiyyətləri artırılır

İclasda "Dövlət qulluğu haqqında", "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də təsdiqləndi.

"Avtomobil yolları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində isə göstərilir ki, bundan sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) öz fəaliyyət istiqamətləri üzrə müvafiq işləri lisenziya və icazə olmadan həyata keçirə biləcək. Yəni dəyişikliyə əsasən agentliyin səlahiyyətlərinin artırılması nəzərdə tutulur.

Qanunun 21-ci (Yol təsərrüfatının idarə edilməsi) maddəsində dəqiqləşdirmə aparılıb: "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) öz fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi siyahıda nəzərdə tutulan lisenziya və icazələrin alınması tələb olunmur". Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

Milli Məclisdə, həmçinin "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında", "İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Sığorta fəaliyyəti haqqında" qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda təsdiqləndi.

Bununla da parlamentin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV(foto),***
***"Azərbaycan"***

# Ələt azad iqtisadi zonası fərqli qaydalarla fəaliyyət göstərəcək

Ələt azad iqtisadi zonası ilə əlaqədar olaraq ümumilikdə 75 qanuna dəyişiklik ediləcək. Bu barədə Milli Məclisin Aqrar siyasət komitəsinin dekabrın 7-də keçirilən iclasında məlumat verildi. İclasda həmin qanunlardan dördünə nəzərdə tutulan dəyişikliklərlə bağlı məsələlər müzakirə olundu.

Komitənin sədri Eldar İbrahimov diqqətə çatdırdı ki, qanun layihələri "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının 18 may 2018-ci il tarixli Qanununun tətbiqi ilə hazırlanıb. Qeyd olundu ki, Ələt azad iqtisadi zonası xüsusi qaydada fəaliyyət göstərəcək, bir sıra fərqli cəhətlərə malik olacaq. Burada tətbiq ediləcək qaydalar ölkənin digər ərazilərindən fərqlənəcək. Odur ki, "Ələt azad iqtisadi zonası haqqında" qanuna görə, qabaqcıl beynəlxalq təcrübəyə və standartlara uyğun gələn, azad iqtisadi zonada bir sıra sahələrdə - maliyyə, gömrük işi, əmək münasibətləri, miqrasiya, vergi tənzimlənməsi, valyuta əməliyyatları aparmaq azadlığı, müflisləşmə və iflas, notariat fəaliyyəti, əqli mülkiyyət və sair, o cümlədən torpaq və sığortanın stimullaşdırılması sahəsində münasibətləri tənzimləyən məcburi xarakterli daxili qaydalar qəbul ediləcək.

Torpaq münasibətlərinin tənzimlənməsi məqsədi ilə qəbul olunacaq qaydalarda azad iqtisadi zonanın torpağı ilə bağlı prosedurlar, bu torpağa dair sərəncam, o cümlədən istifadə, icarə, təminat və digər hüquqların yaradılması və onlara xitam verilməsi qaydaları və tələbləri, zonanın torpağına dair hüquqların yaradılmasını və onlara xitam verilməsini təsdiq edən özünün reyestrinin aparılması və digər məsələlər əksini tapacaq. Bu məqsədlə "Torpaq icarəsi haqqında" qanunun "Torpaq icarəsi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi" adlanan 2-ci maddəsində "Ələt azad iqtisadi zonasında torpaqların icarəyə verilməsi və icarə münasibətləri "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir" məzmununda dördüncü hissənin, "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunun "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında qanunvericilik" adlanan 2-ci maddəsinə "Bu qanunun müddəaları Ələt azad iqtisadi zonasına şamil edilmir" məzmununda 2.2-ci maddənin, Torpaq Məcəlləsinin "Azərbaycan Respublikasının torpaq qanunvericiliyi" adlanan 1-ci maddəsinə "Ələt azad iqtisadi zonasında torpaq münasibətləri "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir" məzmununda üçüncü hissənin, "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanunun "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında qanunvericilik" adlanan 2-ci maddəsinə "Ələt azad iqtisadi zonasında kənd təsərrüfatında sığortanın stimullaşdırılması sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir" məzmununda 2.2-ci maddənin əlavə edilməsi təklif olunur.

Müzakirələr zamanı komitə sədrinin müavini Eldar Quliyev, deputatlardan Novruzəli Aslanov, Tahir Süleymanov, Cavanşir Paşazadə, Hüseynbala Mirələmov və digərləri dəyişiklikləri təqdir etdilər. Qanun layihələri Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

* * *

Dünən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. Komitənin sədri Hadi Rəcəbli gündəliklə bağlı məlumat verərək bildirib ki, müzakirəyə çıxarılan 4 sənəddə edilməsi nəzərdə tutulan dəyişikliklər "Ələt azad iqtisadi zonası haqqında" qanuna uyğunlaşdırmaq məqsədi daşıyır.

Komitə sədrinin sözlərinə görə, Milli Məclisdə Ələt azad iqtisadi zonası ilə bağlı çox mükəmməl, unikal qanun layihəsi hazırlanaraq qəbul olunub. Bu məkan həm yerli, həm də xarici sahibkarlar, investorlar üçün çox yaxşı imkanlar açacaq. Bu zonanın özünün ayrıca Əsasnaməsi də olacaq. Ona görə də bəzi qanun layihələrinə dəyişikliklərin edilməsi zərurəti yaranıb. H.Rəcəbli onu da diqqətə çatdırdı ki, Ələt azad iqtisadi zonası ilə bağlı ümumilikdə 75 qanuna dəyişiklik olacaq.

İclasda əvvəlcə "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə edilib. Bildirilib ki, qanunun 7-ci maddəsi aşağıdakı redaksiyada verilir: 7.1. Sosial sığorta haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu qanundan və digər normativ hüquqi aktlardan ibarətdir. 7.2. Ələt azad iqtisadi zonasında sosial sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

"Məşğulluq haqqında" qanunda təklif olunan dəyişikliyə əsasən sənədin 2-ci maddəsinin mətni 2.1.-ci maddə hesab edilir və aşağıdakı məzmunda 2.2.-ci maddə əlavə edilir: "Ələt azad iqtisadi zonasında məşğulluqla bağlı münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

Sonra "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə müzakirə edilib. Bildirilib ki, sənədin 1-ci maddəsinin mətni 1.1.-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 1.2.-ci maddə əlavə olunsun: Ələt azad iqtisadi zonasında istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" qanunun tələblərinə uyğun olaraq tənzimlənir.

Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsinə əsasən məcəllənin 4-cü maddəsinə aşağıdakı məzmunda 4-cü hissə əlavə edilir: Ələt azad iqtisadi zonasında əmək münasibətləri "Ələt azad iqtisadi zonası haqqında" qanunun tələblərinə uyğun müəyyənləşir.

Komitə üzvləri gündəlikdəki bütün layihələrin Milli Məclisin plenar iclasına tövsiyə olunmasına müsbət münasibət bildirdilər.

***Rəşad CƏFƏRLİ,***
***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Rusiya KİV:
# “Putin məhz Əliyevin əhatəsində oturdu və onunla səmimi söhbətlər, zarafatlar etdi”

## Xarici media Rusiya və Azərbaycan prezidentlərinin münasibətlərinin yüksək səviyyəsini xüsusi vurğulayır, fotolar paylaşır





Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü və bu silsilədə keçirilən tədbirlər Rusiya, eləcə də birliyin digər ölkələrinin KİV-in geniş diqqət mərkəzindədir.

MDB liderlərinin qeyri-rəsmi naharından sonra onların Sankt-Peterburq Dövlət Akademik Mariinski Teatrında Pyotr Çaykovskinin “Şelkunçik” baletinə baxmalarının fotoları isə daha çox müzakirə edilib.

Rusiya Prezidentinin rəsmi internet səhifəsi olan “kremlin.ru” saytında da qeyd olunur ki, V.Putin balet artistləri ilə görüşə məhz İlham Əliyevlə birgə gedib. Sayt bu görüşün xeyli fotosunu yayıb.

“Sm-news.ru” portalı isə “Putin Əliyevlə Lukaşenkonun əhatəsində oturdu” məqaləsində Rusiya Prezidentinin tamaşa zamanı məhz İlham Əliyevlə yanaşı oturmasını və prezidentlərin çox səmimi ovqatda söhbətləşdiklərini, zarafatlaşdıqlarını xüsusi qeyd edir.

Digər KİV və saytlar da müvafiq xəbərləri paylaşır və zalda liderlərin əyləşmə sırasını Putinin xüsusi münasibəti kimi dəyərləndirirlər. Ermənistanın baş naziri N.Paşinyanın liderlərin sırasında ən küncdə əyləşdirilməsinə də diqqət ayıran media bunu Putinin mesajı kimi qiymətləndirib.

Bu mövzuda yazıları Belarus, Qazaxıstan, Moldova və digər MDB ölkələrinin KİV-i geniş yayıb.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Azərbaycanın altıncı ticarət evi

## Yeni ünvan Polşadadır






*Əvvəli 1-ci səh.*

Ticarət evində Azərbaycan şirkətlərinin müxtəlif növ məhsullarının sərgisi təşkil olunub. Daimi fəaliyyət göstərəcək sərgidə 30-a yaxın Azərbaycan şirkətinin istehsal etdiyi məhsullar, o cümlədən spirtli içkilər, quru meyvələr, nar, fındıq, çay, mürəbbə, meyvə suları, mineral sular, kosmetik məhsullar və s. nümayiş olunur.

Azərbaycan Ticarət Evinin fəaliyyətə başlaması ilə əlaqədar təşkil olunmuş tədbirdə iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti, Polşanın rəsmi şəxsləri və iş adamları iştirak ediblər.






### Azərbaycan-Polşa ticarət dövriyyəsi 57 faiz artıb

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Polşada Azərbaycan Ticarət Evinin açılmasının dövlət başçılarının ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafına verdikləri böyük önəmin, Polşada Azərbaycan məhsullarına olan marağın göstəricisi olduğunu vurğulayıb. Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəsi də məhz 2017-ci ildə Polşada təyin olunub. Qeyd olunub ki, strateji tərəfdaşlıq, qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-Polşa əlaqələri uğurla inkişaf edir. Polşanın paytaxtı Varşavada Azərbaycan Ticarət Evinin açılması iki ölkə arasında iqtisadi əməkdaşlığın inkişafına, işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə töhfəsini verəcəkdir.

Azərbaycan və Polşa arasında ticarət əlaqələrinin dinamik inkişafını vurğulayan Şahin Mustafayev qeyd edib ki, bu ilin ilk 9 ayı ərzində ölkələrimiz arasında ticarət dövriyyəsi 57% artıb. İndiyədək Polşa Azərbaycana 20 mln. dollardan çox, Azərbaycan isə Polşaya 6,5 mln. dollar investisiya yatırıb. Hazırda Azərbaycanda xidmət, sənaye və ticarət sahələrində 21 Polşa şirkəti fəaliyyət göstərir.

Əməkdaşlığın inkişafı perspektivlərindən danışan iqtisadiyyat naziri ölkələrimiz arasında sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat, təhsil, turizm və digər sahələrdə böyük potensialı diqqətə çatdırıb.

### İlk ixrac müqavilələri imzalandı

Polşanın sahibkarlıq və texnologiyalar naziri xanım Yadviqa Emileviç və xarici işlər nazirinin müavini Maciej Lang Varşavada Azərbaycan Ticarət Evinin fəaliyyətə başlamasının ikitərəfli iqtisadi əlaqələrin inkişafında mühüm addım olduğunu, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın və işgüzar münasibətlərin inkişafında əhəmiyyətini vurğulayıb, qarşılıqlı iqtisadi əlaqələrin daha da genişləndirilməsinə dair fikirlərini bölüşüblər.

Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov Polşada Azərbaycan Ticarət Evinin iqtisadi əlaqələrin genişlənməsində önəmini qeyd edib, iş adamlarını bu imkandan yararlanmağa dəvət edib.

Sonra tədbir iştirakçıları Azərbaycan Ticarət Evi və burada daimi fəaliyyət göstərən Azərbaycan məhsullarının sərgisi ilə tanış olublar.

Tədbir çərçivəsində Azərbaycan Ticarət Evi ilə Polşanın “STX ONE” şirkəti arasında fındıq və nar şirəsi konsentratının satışına dair anlaşma memorandumu imzalanıb.

Polşaya səfər çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayev Polşanın sahibkarlıq və texnologiyalar naziri xanım Yadviqa Emileviçlə görüşüb. Görüşdə Şahin Mustafayev Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən islahatlar, yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verib, polşalı sahibkarları bu imkanlardan yararlanmağa dəvət edib. Polşanın sahibkarlıq və texnologiyalar naziri xanım Yadviqa Emileviç Polşanın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu vurğulayaraq əməkdaşlıq perspektivləri barədə fikirlərini bölüşüb.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# Azərbaycan-Serbiya əlaqələri strateji əməkdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanır



Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç bu ölkədə səfərdə olan Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Serbiya Prezidenti Aleksandr Vuçiç 2018-ci ilin mayında Azərbaycana səfərini məmnunluqla xatırlayıb və salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırmağı xahiş edib. Serbiya Prezidenti ölkələrimiz arasında əlaqələrin inkişaf etdiyini, Serbiyanın Azərbaycanla əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayıb.

Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev səmimi qəbula görə təşəkkür edib və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Serbiya Respublikasının Prezidentinə çatdırıb, Azərbaycan-Serbiya əlaqələrinin strateji əməkdaşlığa, qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslandığını, ölkəmizin əməkdaşlığın inkişafına böyük əhəmiyyət verdiyini bildirib.

Görüşdə Azərbaycan-Serbiya əməkdaşlığının müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə inkişaf etdiyi qeyd olunub, iqtisadi-ticarət, sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, tranzit, infrastruktur, turizm, İKT, səhiyyə və digər sahələrdə Azərbaycan-Serbiya əlaqələrinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

# 1,3 milyard dollarlıqdan çox qeyri-neft məhsulları ixrac edilib

*Əvvəli 1-ci səh.*

Belə ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin 10 ayında pambıq lifinin ixracı 2,3 dəfə, elektrik enerjisinin ixracı 62, pambıq ipliyinin ixracı 41, plastmas və onlardan hazırlanan məmulatların ixracı 28, meyvə-tərəvəzin ixracı 8, alüminium və ondan hazırlanan məmulatların, eləcə də qara metallar və onlardan hazırlanan məmulatların hər birinin ixracı 5 faiz artıb.

Təkcə bu ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixracın dəyəri 144 milyon dollar təşkil edib. Bu dövrdə qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısına Rusiya başçılıq edir. Sonrakı yerlərdə Türkiyə, İsveçrə, Gürcüstan, Ukrayna və digər ölkələr qərarlaşıb.

Payız mövsümü ilə əlaqədar kənd təsərrüfatında məhsul yığımı başa çatır. Buna görə də cari ilin oktyabr ayında qeyri-neft sektoru üzrə ixracda kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir. Bu dövrdə ixracda xurma üstünlük təşkil etsə də, sonrakı yerləri müvafiq olaraq qabığı təmizlənmiş meşə fındığı ilə alma bölüşür.

“İxrac İcmalı”nın noyabr sayında qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi də verilib. Bildirilir ki, cari ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin siyahısında ilk onluqda “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “MKT İstehsalat Kommersiya”, “Kapitan Fruits”, “Baku Steel Company”, “Azfruittrade”, “Food Export Şəmkir”, “Qala meyvə-tərəvəz ixracat idxalat”, “Sun Food”, “Azərbaycan Şəkər İstehsalat Birliyi”, “Ram Beynəlxalq Nəqliyyat və Ticarət Ltd” MMC-lərdir.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə SOCAR-ın “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Sonrakı yerlərdə “Detal Alüminium” MMC, “Azərenerji” ATSC, “AzerGold” QSC, “Azərbaycan Hava Yolları” QSC, “”SOCAR Methanol” MMC, “CTS-Agro” MMC, “Ərzaq Məhsullarının Tədarükü və Təchizatı” ASC, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti, “Suraxanı Maşınqayırma Zavodu Törəmə” ASC gəlir.

### İslahatların əhatə dairəsi genişdir

Ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən islahatlar əhatə dairəsinə görə genişdir. Buraya qeyri-neft sənayesi və kənd təsərrüfatı ilə yanaşı, yüksək texnologiyalar sahəsi də aiddir. “İxrac İcmalı”nda bildirilir ki, cari ilin yanvar-oktyabr aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın 23 ölkəsinə 22,4 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) göstərilib. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 88 faizini təşkil edib. “Azərkosmos” ASC-nin bu ilin 10 ayı ərzində xidmət göstərdiyi əsas ölkələr Fransa, Malayziya, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Gürcüstan və digərləridir.

Azərbaycanda turizm infrastrukturunun yaradılması və ölkəyə gələn turistlər üçün vizanın alınmasının sadələşdirilməsi müsbət nəticələr verir. Ölkəmizə gələn turistlərin sayı ildən-ilə artır. Əvvəllər paytaxta gələn turistlər indi bölgələrə də üz tuturlar. Ölkəmizin füsunkar təbiəti və bölgələrdə yaradılan şərait turistləri özünə cəlb edir. Cari ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana dünyanın 194 ölkəsindən 2 milyon 420,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsilə xərcləmələrində də artım müşahidə edilib. Belə ki, cari ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 28 faiz çox olub.

“İxrac İcmalı”nda hesabat dövründə “Azexport.az” portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Bildirilir ki, oktyabr ayı ərzində “Azexport.az” portalına 23 milyon dollar məbləğində ixrac sifarişləri daxil olub. Ümumilikdə cari ilin 10 ayında “Azexport.az” portalına daxil olan ixrac sifarişlərinin dəyəri 433 milyon dollar təşkil edib. Cari ilin yanvar-oktyabr aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə portala daxil olan ixrac sifarişləri dəyər baxımından 10 faiz artıb.

İcmalda “Bir pəncərə” İxraca Dəstək Mərkəzinin fəaliyyəti barədə də məlumat var. Qeyd edilib ki, bu ilin noyabr ayında mərkəz tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı tələb olunan sertifikatlar verilib. Həyata keçirilən ixracın dəyəri 11,8 milyon dollar olub. Hazırda ölkənin qeyri-neft ixracının 10 faizinin sənədləşdirilməsi bu mərkəzdə həyata keçirilir.

***Rüstəm KAMAL, “Azərbaycan”***

# Moskvada MDB İqtisadi Şurasının növbəti iclası keçirilib



Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 80-ci iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycanı iclasda Baş nazirin birinci müavini Yaqub Eyyubov təmsil edib.

İclas iştirakçıları əmtəə və xidmətlərin azad mübadiləsi haqqında saziş layihəsi üzərində işi fəallaşdırmaq, ona "İnvestisiyalar" fəslini əlavə etmək barədə qərar qəbul ediblər, "MDB-nin iştirakçısı olan dövlətlərdə rəqabətli siyasətin formalaşdırılması" mövzusunda məruzəni müzakirə ediblər və tövsiyə ediblər ki, MDB ölkələrinin əlaqədar nazirlik və idarələri onun müddəalarını nəzərə alsınlar.

2020-ci ilə qədər olan dövrdə Dövlətlərarası İnnovasiya Əməkdaşlığı Proqramı çərçivəsində innovativ fəaliyyətin monitorinq sistemi haqqında Əsasnamə və innovasiyaların kommersiyalaşdırılması mərkəzləri şəbəkəsinin yaradılması haqqında Əsasnamə də təsdiq edilib.

İclas iştirakçıları dəmir yolu nəqliyyatında razılaşdırılmış tarif siyasətinin müəyyən edilməsi Konsepsiyası və 2018-ci fraxt ili üçün dəmir yollarının tarif siyasəti haqqında MDB Hökumət Başçıları Şurasının qərarının yerinə yetirilməsi barədə informasiyanı müzakirə ediblər, malın mənşə ölkəsinin müəyyən edilməsi qaydaları haqqında Sazişə dəyişikliklər edilməsi haqqında Protokol layihəsini bəyəniblər.

İclasda 2018-ci ildə Tacikistan Respublikasının MDB-yə sədrliyinin iqtisadi gündəliyinə yekun vurulub. İqtisadi Şura üzvlərinə 2019-cu ildə MDB-yə Türkmənistanın sədrliyi Konsepsiyası təqdim edilib.

Bundan əlavə, bir sıra büdcə-maliyyə və təşkilati məsələlər müzakirə olunub.

MDB İqtisadi Şurasının növbəti iclası 2019-cu il martın 15-də Moskvada keçiriləcək.

# Azərbaycanda insan hüquqlarının müdafiəsini təmin edən çox mükəmməl qanunvericilik bazası var



Dekabrın 7-də Bakıda Azərbaycan Respublikası ombudsmanının təşkilatçılığı ilə "Bərabər hüquqların təmini sülh və dayanıqlı inkişafın əsas təməlidir" mövzusunda beynəlxalq konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, insan hüquqları üzrə müvəkkil Elmira Süleymanova beynəlxalq konfransın Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsinin 70 illiyinə və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyinə həsr olunduğunu söyləyib.

Azərbaycanda insan hüquqlarının qorunması sahəsində görülən işlərdən danışan müvəkkil qeyd edib ki, Ombudsman Aparatı insanların hüquq və azadlıqlarının qorunması istiqamətində BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar ilə əməkdaşlıq şəraitində çalışır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 64 əfv sərəncamı imzalanıb, 11 amnistiya aktı qəbul edilib və bunlar on minlərlə insana şamil olunub. Dövlətimizin ali məqsədinin insan hüquqlarının müdafiəsi olduğunu deyən ombudsman vurğulayıb ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs ölkədə dayanıqlı inkişafa, insanların həyat səviyyəsinin yüksəlməsinə, hüquq bərabərliyinin təmininə imkan yaradıb. Ölkəmizdə hüquqla bağlı çoxsaylı qanunvericilik aktları qəbul olunub. Bu gün özlərini demokratiyanın beşiyi hesab edən ölkələrdə ksenofobiya, dini, irqi ayrı-seçkilik halları baş versə də, Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələri bərabər şəkildə yaşayırlar.

Milli Məclisin Sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova qeyd edib ki, bu gün Azərbaycanda insan hüquqlarının müdafiəsini təmin edən çox mükəmməl qanunvericilik bazası var. Azərbaycanın qanunvericilik bazası insanların hüquqlarının bərabər şəkildə təmin edilməsini gerçəkləşdirən mühit formalaşdırır. Bugünkü nailiyyətlər bu uğurların əldə edilməsinə töhfə verən Azərbaycan vətəndaşlarının iştirakı ilə əldə olunub. Xalqın mütləq dəstəyi olmadan hər hansı ideyanı gerçəkləşdirmək qeyri-mümkündür. Bu gün insan hüquqlarının təminindən, ədalətdən danışılır. Müstəqil dövlət olmasa və insan hüquqlarının təmini üçün lazım olan şərait yaradılmasa, bütün bunları etmək olmaz. Azərbaycan ötən illərdə çox böyük uğurlara imza atıb. Bu gün bizim hər birimiz belə bir ölkənin vətəndaşı olduğumuz üçün qürur duyuruq, eyni zamanda, bunun məsuliyyətini daşımalıyıq. Azərbaycanın əsas qanunu olan Konstitusiyada hüquq bərabərliyi və onun dövlət tərəfindən təmin edilməsi öz təsbitini tapıb. Dünyada gündəlik hüquqpozmalar, məişət zorakılığı, mənsubiyyətə görə fərqqoyma kimi mənfi hallarla üzləşdiyimiz bir dövrdə beynəlxalq təşkilatlar koordinasiya olunmuş şəkildə fəaliyyət göstərməlidirlər. Bunun üçün də geniş maarifləndirmə işləri aparılmalıdır.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai diqqətə çatdırıb ki, Azərbaycan insan hüquqlarının qorunması sahəsində çox fəaldır və Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən irəli gələn öhdəlikləri yerinə yetirir. Azərbaycan insan haqları ilə bağlı tövsiyələrə əməl edir, insan haqlarına hörmətini nümayiş etdirir, bir çox beynəlxalq sazişlərə qoşulub.

Qulam İshaqzai əlavə edib ki, dünyada vətəndaş cəmiyyətinin insan hüquqlarının qorunması ilə bağlı atdıqları addımlar getdikcə daralır. Hər bir şəxsin hüquqlarının qorunması hamımızdan asılıdır. Dayanıqlı inkişaf üçün yoxsulluğun aradan qaldırılması insan hüquqlarının yaxşılaşmasına yönəlmiş addımdır. İnsanlar dünyada baş verən proseslərdən, dəyişikliklərdən, qeyri-müəyyənliklərdən əziyyət çəkirlər. İnsan hüquqlarının qorunması bu mənada çox vacibdir. Azərbaycan bu sahədə də uğurlar qazanıb, çox fəal şəkildə müntəzəm olaraq aidiyyəti qurumlara hesabatlar təqdim edir. BMT Azərbaycana bu istiqamətdə dəstək verir.

UNICEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin bildirib ki, Azərbaycan 26 il bundan əvvəl BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulub. Azərbaycan hökuməti konvensiyadan irəli gələrək uşaqların ibtidai təhsil almaları, ölüm hallarının azaldılması və erkən nikahların qarşısının alınması istiqamətində işlər görüb. Azərbaycan hökuməti və parlamenti birgə fəaliyyətlə həssas ailələrdəki uşaqlara xüsusi diqqət yetirir.

Bundan başqa, E.Karvardin Azərbaycanda qız uşaqlarının təhsilə cəlb edilməsi istiqamətində görülən işləri yüksək qiymətləndirib. Əlavə edib ki, qızların təhsil almaları gələcək nəslin savadlı olmasına yol açır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova deyib ki, Azərbaycan hökuməti qadınların və uşaqların müdafiəsi sahəsində gələcəkdə görüləcək işləri və hədəfləri müəyyən edib. Həmin tədbirlərin ən vacibi ailə institutunun gücləndirilməsi, reproduktiv sağlamlıq, qadınların və uşaqların zorakılığına qarşı tədbirlərin görülməsidir. O deyib ki, məişət zorakılığı bu gün aktualdır, amma məişət zorakılığı ilə bağlı vəziyyətə baxış fərqlidir. Bu gün zorakılıq qurbanlarının hüquqlarının müdafiəsi üçün tədbirlər görülür. Ölkədə hər bir işdə davamlılığın təmin edilməsi üçün tədbirlər həyata keçirilir. Ötən müddət ərzində qadınların hüquqlarının müdafiəsi sahəsində iki mühüm qanun - "Gender siyasəti haqqında" və "Məişət zorakılığı haqqında" qanunlar qəbul edilib.

Sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dekanı Əmir Əliyev, Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni insan hüquqlarının müdafiəsi sahəsində tədrisin rolu və insan hüquqları və vətəndaş cəmiyyəti mövzularında çıxış ediblər.

Tədbirin sonunda Ombudsman Aparatının "Hüquqlar - hamı üçün" və "Mən və hüquqlarım" mövzularında təşkil olunan yazı və rəsm müsabiqələrinin qalibləri mükafatlandırılıb.

# *Hikmət HACIYEV:* "MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçdi"

*Əvvəli 1-ci səh.*



**- Azərbaycanın bu məsələdə humanist xarakter daşıyan və "hamının hamıya" prinsipinə söykənən mövqeyinə Ermənistanın münasibəti necədir?**

- Prezident İlham Əliyev Azərbaycanın bu məsələdə mövqeyini vurğulayaraq bildirib ki, "hamının hamıya" prinsipi əsasında dəyişdirmə tam olmalı və o cümlədən Dilqəm Əsgərov və Şahbaz Quliyev onların arasında yer almalıdır. Humanist xarakter daşıyan bu kimi addımlar danışıqlar prosesinə müsbət təsir göstərə bilər. ATƏT-in Minsk qrupunun həmsədrləri də bu mövqeyi dəstəkləyir və ona görə də Ermənistan tərəfi bunu nəzərə almalıdır.

Soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi və Azərbaycana qaytarılması məsələsini dövlətimizin başçısı ATƏT-in Minsk qrupunun həmsədrləri, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və digər tərəf-müqabilləri ilə görüşlərdə hər dəfə qaldırır.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlətimizin başçısı Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi üçün böyük səylər göstərir və bu məsələni daim diqqətdə saxlayır.

**- Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan iki ölkə arasında rabitənin yaradılması barədə danışır. Bu barədə nə deyərdiniz?**

- Düşənbədə dövlətimizin başçısı ilə Ermənistan baş naziri arasında olan söhbət əsnasında razılıq əldə edilmişdi ki, zəruri hallarda əlaqə yaratmaq üçün imkanlar təmin edilsin. Bu əlaqələr müntəzəm xarakter daşımır, dövlət başçıları, xarici işlər və ya müdafiə nazirləri səviyyəsində olan təmaslar deyil, aşağı səviyyədə və lazım olan hallarda həyata keçirilir.

**- Kütləvi informasiya vasitələrində verilən məlumata görə, Belarus Prezidenti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının növbəti baş katibinin Belarusdan olacağını bildirib. Ermənistan tərəfi isə bunu təkzib edərək fərqli fikir səsləndirib. Bu barədə nə demək olar?**

- Sözügedən məsələ ilə bağlı biz də kütləvi informasiya vasitələrindən məlumat almışıq. Kuluarlarda gedən söhbətlər onu deməyə əsas verir ki, MDB ölkələrinin qeyri-rəsmi Zirvə görüşündən əvvəl Avrasiya İqtisadi İttifaqının Sammitində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi məsələsi müzakirə olunub. Çox dərinə getmək istəməzdim, amma bəzi mənbələrdən aldığımız məlumata görə, KTMT-nin baş katibi məsələsi ilə bağlı iclasda gərgin vəziyyət yaranıb. Bizdə olan məlumata əsasən, tam əminliklə deyə bilərik ki, Ermənistan KTMT-nin baş katibi vəzifəsini itirib və Ermənistanın rəyi və fikri nəzərə alınmadan böyük ehtimalla yaxın gələcəkdə bu vəzifəyə Belarusun nümayəndəsi təyin olunacaq. Ermənistanın baş katib vəzifəsini özündə saxlamaqla bağlı bütün səyləri iflasa uğrayıb. Bu, ümumilikdə Ermənistanın siyasəti və diplomatiyasının növbəti məğlubiyyətidir.

**- Hadisələrin bu məcrada inkişafını Azərbaycanın növbəti qələbəsi kimi qəbul etmək olarmı?**

- Bildiyiniz kimi, Azərbaycan KTMT-nin üzvü deyil və ölkəmiz təşkilat daxilində gedən proseslərə müdaxilə etmək fikrində deyil. Prezident İlham Əliyevin bu ilin noyabrında Belarusa səfərindən öncə bu ölkənin səfirini qəbul edərkən səsləndirdiyi fikirlərə istinad etmək istərdim. Dövlətimizin başçısı bildirmişdi: "Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir". Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirmək üçün KTMT-nin arxasında gizlənməyə çalışır. Ermənistanın üzləşdiyi aprel məğlubiyyətinin təcrübəsi də bunu göstərdi.

Heç kimə sirr deyil ki, yeni baş katibin təyinatı məsələsini Prezident İlham Əliyev Ermənistan istisna olmaqla, KTMT-yə üzv olan bütün ölkələrin dövlət başçıları ilə bu və ya digər formada müzakirə edib.

Sözsüz ki, işğalçı dövlət olaraq Ermənistanın çoxsaylı xarakter daşıyan hər bir siyasi, diplomatik, iqtisadi və digər müstəvilərdə olan məğlubiyyəti Azərbaycanın qələbəsi kimi dəyərləndirilə bilər. Çünki bu məğlubiyyətlərin şərtləndirilməsində Azərbaycanın rolu kifayət qədər böyükdür. Nəticə etibarilə Ermənistanın tamhüquqlu üzv olduğu KTMT-də növbəti dəfə alçaldıcı məğlubiyyəti bu sıradan olan nümunələrdən biridir.

Prezident İlham Əliyev bəziləri kimi deklarativ deyil, dərin strateji düşüncə və praqmatik baxışlar əsasında yüksək məharətlə və müdrikliklə "strateji diplomatiya" adlandırılan siyasət yürütmək iqtidarında olan şəxsiyyətdir. Bu "strateji diplomatiya" Azərbaycanın qələbəsini təmin edir, milli maraqlarımızın qorunmasına, ölkəmizin beynəlxalq münasibətlərdə mövqeyinin və rolunun gücləndirilməsinə xidmət edir.

Dekabrın 2-7-də Danimarkanın paytaxtı Kopenhagendə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) IV qurultayı keçirilib. Qurultayın son günü BHİK-in rəhbər orqanlarına seçkilər keçirilib.




# Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib




Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, qurultayda iştirak edən Azərbaycan həmkarlar ittifaqlarının nümayəndə heyətinin rəhbəri, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib.

Qeyd edək ki, qurultayın gedişində Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun ingilis dilində çap olunan "Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri" kitabı Azərbaycan nümayəndə heyətinin üzvləri tərəfindən iştirakçılara paylanıb.

## Atəşkəs rejimi 25 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğal altındakı Ağdam rayonunun Nəmirli, Qaraqaşlı, Kəngərli, Yusifcanlı, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycanın xarici işlər naziri ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüşüb

Milanda ATƏT Nazirlər Şurasının 25-ci iclasında iştirak edən xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlem Dezir ilə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in ifadə və media azadlığı üzrə öhdəlikləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər əsas danışıq mövzusu olub. ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə ölkəmiz arasında mövcud əməkdaşlıq münasibətlərinin perspektivləri üzrə fikir mübadiləsi aparılıb və bu istiqamətdə atıla biləcək mümkün addımlar müzakirə olunub.

Tərəflər arasında, həmçinin yeni texnologiya vasitələrinin media və ifadə azadlığı üzrə inkişafa təsiri ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanda media və ifadə azadlığı üzrə inkişafa toxunan nazir Elmar Məmmədyarov ölkə əhalisinin 80 faizinin internet istifadəçisi olduğunu vurğulayıb.

# Mədəniyyət naziri Ceyhun Hacıbəylinin Bakıda səfərdə olan varisləri ilə görüşüb

Mədəniyyət naziri Əbülfəs Qarayev görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Ceyhun Hacıbəylinin Bakıda səfərdə olan varisləri Paskal Hacıbəyli Buşe və Benjamin Hacıbəyli ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Ə.Qarayev dahi bəstəkar Üzeyir Hacıbəylinin Azərbaycan mədəniyyətindəki xüsusi yerindən danışıb və onun adı ilə bağlı keçirilən beynəlxalq festival, konfrans və tədbirlərlə bağlı qonaqlara məlumat verib.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2018-ci ilin ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin silsilə tədbirlərlə qeyd edildiyi haqqında danışan nazir görkəmli ictimai-siyasi xadim Ceyhun Hacıbəylinin bu sahədəki xidmətlərini xüsusi vurğulayıb. Eyni zamanda, nazir, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi və Ceyhun Hacıbəylinin 125 illik yubileyi şərəfinə Azərbaycan Dövlət Musiqili Teatrında nümayiş olunan "Nuri-didə Ceyhun" pyesi haqqında məlumat verib. Qeyd edib ki, Ceyhun Hacıbəyli obrazının canlandırıldığı bu tamaşa onun məşəqqətli mühacirət həyatından və cümhuriyyətimizin keçdiyi çətin, lakin şərəfli mübarizə yolundan bəhs edir.

Paskal Hacıbəyli Buşe səmimi qəbula görə nazir Əbülfəs Qarayevə təşəkkürünü bildirərək məmnunluğunu ifadə edib.

# *Elmar MƏMMƏDYAROV:* "Bakı-Tbilisi-Qars Avropa-Asiya dəmir yolu yükdaşımaları əlaqəsinə əhəmiyyətli dərəcədə töhfə verəcək"

Ötən illər ərzində Azərbaycan qeyri-neft sektorunun, xüsusilə də ölkədə biznes və sərmayə mühitinin inkişafı və nəqliyyat infrastrukturlarının inşası və buraya sərmayə qoyulması istiqamətində nəzərəçarpacaq addımlar atıb. Lakin bizim səylərimiz yalnız Azərbaycanla məhdudlaşmır.

Azərbaycan hökumətinin əsas prioritetləri arasında Şərq-Qərb və Şimal-Cənub oxları boyunca qonşu ölkələr və ATƏT-ə üzv olan digər maraqlı dövlətlər ilə əməkdaşlıqda regional, trans-regional və çoxmodullu nəqliyyat dəhlizlərinin inkişafı yer alır. Artan bağlılığa töhfə verən layihələr arasında ilkin mərhələdə 6-7 milyon ton, daha sonra isə ildə 17 milyon ton yükgötürmə qabiliyyəti olan Bakı-Tbilisi-Qars dəmir yolu var. Yeni İpək yolu adlanan Bakı-Tbilisi-Qars trans-Avropa və trans-Asiya dəmir yolu şəbəkələrini birləşdirəcək, eləcə də Avropa və Asiya arasında etibarlı və inteqrasiya olunmuş dəmir yolu yükdaşımaları əlaqəsinə əhəmiyyətli dərəcədə töhfə verəcək yeni yaranmış qitələrarası dəhlizin əsas seqmentidir. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov "ATƏT məkanında iqtisadi bağlılığın təşviq edilməsi" tədbirində çıxışı zamanı deyib.

Nazir deyib: "Şübhəsiz ki, bağlılıq əməkdaşlığımızın və dayanıqlı iqtisadi artımın möhkəmlənməsinə töhfə verə bilir. ATƏT-in Nazirlər Şurasının 2016-cı il tarixli Hamburq Sammitinin bağlılığın təşviq edilməsi və yaxşı idarəetmənin möhkəmləndirilməsi ilə bağlı qərarı, eləcə də ATƏT-in əvvəlki bütün müvafiq sənədləri və qərarları bu istiqamətdə əməkdaşlıq üçün faydalı çərçivəni təmin edir.

Ticarətin davamlı şəkildə artan həcmini nəzərə alaraq, aydındır ki, bir-biri ilə rəqabətdə olmayan, lakin bir-birini tamamlayan etibarlı ticarət marşrutlarının müxtəlifliyi olmalıdır".

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan hökumətinin başqa bir prioritet sahəsi tranzit və ticarətdə daha şəffaf gömrük proseslərinə imkan verən səmərəli ticarət qaydalarını təqdim etmək, idxal, ixrac və tranzit sərhəd prosedurlarının səmərələşdirilməsi də daxil olmaqla nəqliyyat və ticarətin asanlaşdırılmasında yaxşı idarəetmədir. Ticarətin asanlaşdırılmasında elektron imza prinsipinə əsaslanan elektron bəyannamə sistemi kimi informasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət ayrılır.

"Xüsusilə qeyd etmək istədiyim bir sahə Yeni Bakı Limanı ətrafında Azad Ticarət Zonasının yaradılması vasitəsilə ticarət-logistika sektorunda xarici şirkətlər üçün əlverişli və azad sərmayə rejiminin təmin edilməsi üzrə səylərimizdir. Bu Azad İqtisadi Zonanın məqsədi Azərbaycanın çoxsaylı ticarət yolları üzrə Avropa və Asiya arasında ticarəti asanlaşdıracaq regional ticarət-logistika mərkəzi kimi cəlbediciliyinin artırılmasıdır.

İcra üçün artıq hazır olan, Azərbaycanı və Mərkəzi Asiyadakı tərəfdaşlarımızı, habelə potensial olaraq Əfqanıstanı da əhatə edəcək "Xəzər dənizi regionunda bağlılığın və yaşıl limanların təşviqi" adlı ATƏT-in büdcədənkənar layihəsi Avropa və Asiya arasında bağlılığı daha da gücləndirəcəkdir. Fürsətdən istifadə edərək bu mühüm layihəni ərsəyə gətirdiyi üçün ATƏT-in iqtisadi və ətraf mühit fəaliyyətləri üzrə əlaqələndiricisi səfir Vuk Zuqiç və onun komandasına təşəkkür edirəm və ATƏT-in üzv dövlətlərini bunun reallaşmasına töhfə verməyə çağırıram", - deyə nazir vurğulayıb.

# Təhsil naziri Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə yüksək səviyyəli illik konfransında iştirak edib

Azərbaycanın təhsil naziri Ceyhun Bayramov dekabrın 7-də Vyana şəhərində keçirilən "Daha güclü cəmiyyət üçün daha güclü iqtisadiyyat - davamlı inkişaf üçün insan resurslarına investisiya" adlı Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə yüksək səviyyəli illik konfransında iştirak edib.



Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, konfransdan öncə təhsil naziri Avropa İttifaqının qonşuluq siyasəti və genişlənmə üzrə komissarı Yohannes Han və Avstriyanın xarici işlər, Avropa və inteqrasiya məsələləri üzrə federal naziri xanım Karin Kneissl ilə görüşüb. Görüş zamanı Avropa İttifaqının Şərq Tərəfdaşlığı çərçivəsində mövcud alətlərdən Şərq Tərəfdaşlığına üzv ölkələrdə təhsilin inkişafı naminə istifadə imkanları müzakirə edilib. Ceyhun Bayramov Avropa İttifaqının dəstəyi ilə Azərbaycanda təhsil sahəsində layihələrin həyata keçirildiyini vurğulayıb. Nazir görüş iştirakçılarına "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" haqqında ətraflı məlumat verib.

Təhsil naziri daha sonra Avropa Komissiyasının təhsil, gənclər, idman və mədəniyyət üzrə baş direktor müavini xanım Vivian Hofmanla görüşüb. Görüş zamanı Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Görüşlərdən sonra Ceyhun Bayramov Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə yüksək səviyyəli illik konfransa qatılıb. Panel müzakirələri zamanı çıxış edən təhsil naziri Azərbaycanda təhsil sahəsində əldə olunan nailiyyətlərdən danışıb. Daha sonra nazir təhsildə əldə edilən bilik və bacarıqların əmək bazarına uyğunluğunun vacibliyini vurğulayıb. Diqqətə çatdırıb ki, müasir zamanda informasiya texnologiyalarının sürətli inkişafı bilik və bacarıqların mütəmadi yenilənməsini tələb edir. Buna nail olmaq üçün bütün maraqlı tərəflər qarşılıqlı şəkildə əməkdaşlıq etməlidirlər.

# AXC-nin 100 illiyinə həsr edilmiş sərgi-tədbir

Dünən Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının və respublika Rəssamlar İttifaqının dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Mən fəxr edirəm ki, azərbaycanlıyam" adlı sərgi keçirilib.

YAP Yasamal rayon təşkilatının binasında keçirilən bu tədbirdə müxtəlif yaş qrupundan olan rəssamlar, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Sərgidə təsviri sənətin bütün növləri üzrə 100-dən çox rəssamın 150-dən çox əl işi nümayiş etdirilib.

Maraqla qarşılanan sərgidə fərqlənən rəssam-müəlliflər diplomlarla təltif olunublar.

***A.MƏMMƏDOV (foto), "Azərbaycan"***







# Azərbaycan hökuməti təhsil sektoruna böyük sərmayə yatırır

## Bu fikir UNESCO-nun qlobal təhsil iclasında səsləndirilib





Təhsil nazirinin müavini Firudin Qurbanov UNESCO və Belçika hökumətinin birgə təşkilatçılığı ilə keçirilən qlobal təhsil iclasında iştirak etmək məqsədilə Belçika Krallığının Brüssel şəhərində səfərdə olub.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, qlobal təhsil iclasında BMT, UNESCO, Avropa İttifaqının məsul şəxsləri, UNESCO-ya üzv dövlətlərin təhsil nazirləri, nazir müavinləri, BMT agentlikləri, beynəlxalq və regional təşkilatların, özəl sektorun nümayəndələri də daxil olmaqla 300-dən çox rəhbər şəxs iştirak edib.

Qlobal təhsil iclasının rəhbər şəxslər üçün olan bölməsinin açılış mərasimində Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə BMT-nin xüsusi nümayəndəsi, Belçika Kraliçası xanım Mathilde, UNESCO baş direktorunun təhsil üzrə müavini Stefaniya Giannini, BMT-nin baş direktorunun müavini Amina Mohammed, BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) direktoru İnqa Rhonda Kinq, təhsil, mədəniyyət, gənclər və idman üzrə Avropa komissarı Tibor Navraksis çıxış ediblər.

Nazirlərin görüşünün ikinci "dəyirmi masa"sında çıxış edən Firudin Qurbanov ölkəmizdə Dayanıqlı İnkişaf Məqsədləri - hədəf 4 üzrə görülmüş işlər və perspektivlərə dair iştirakçılara məlumat verib.

Nazir müavini "Hamı üçün inklüziv və keyfiyyətli təhsilin təminatı və ömrü boyu təhsilin təşviq edilməsi"nin (hədəf 4) Azərbaycan Prezidentinin 2013-cü ilin 24 oktyabr tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" ilə bir çox sahələrdə uyğunluq təşkil etdiyini diqqətə çatdırıb və strategiyada göstərilən islahatların aparılması sayəsində bir sıra sahələrdə yüksək nəticələr əldə olunduğuna dair ətraflı məlumat verib. O, həmçinin ümumi təhsilin yeni standartlarının hazırlanması, təhsildə gender bərabərliyinin təmin edilməsi və inklüziv təhsil sahəsində görülən işlər barədə danışıb və "2018-2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edildiyini vurğulayıb.

Nazir müavini torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalması nəticəsində yaranan çətin vəziyyətə baxmayaraq, Azərbaycan hökumətinin təhsil sektoruna geniş sərmayə yatırmasını, son dövrlərdə məcburi köçkün uşaqların təhsil hüquqlarını təmin etmək məqsədilə onlar üçün yüzlərlə məktəb tikildiyini bildirib. O, ölkədə məktəblərin 70 faizdən çoxunun yenidən tikildiyini və ya əsaslı təmir olunduğunu da görüş iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirin sonunda Dayanıqlı İnkişaf Məqsədləri - hədəf 4 üzrə "Əldə olunmuş nəticələr"ə dair tövsiyə xarakterli yekun bəyanat qəbul edilib.

# BMT-nin Təhlükəsizlik Şurasında debatlarda beynəlxalq hüquq normalarını pozanlar barəsində tədbir görməyin zəruri olması haqda danışılıb

Dekabrın 6-da BMT Təhlükəsizlik Şurasında münaqişələrin qarşısının alınmasında və nizamlanmasında dövlətlərin, regional mexanizmlərin və Birləşmiş Millətlər Təşkilatının rolu məsələsinə həsr edilmiş açıq debatlar təşkil edilib.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev gündəliyin müvafiq bəndi çərçivəsində "Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması sahəsində BMT ilə regional və subregional təşkilatlar arasında əməkdaşlıq" mövzusunda çıxış edib.

Yaşar Əliyev öz çıxışında vurğulayıb ki, münaqişələrin qarşısının alınması sülhün təmin olunmasında həlledici əhəmiyyətə malikdir və bu istiqamətdə uğurlu səylər bir sıra hallarda gərginliyi azaldıb, qan tökülməsinin qarşısını almağa kömək edib. Diplomat daha sonra deyib ki, BMT ilə regional mexanizmlər arasında əməkdaşlığın möhkəmlənməsində - beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasından, humanitar yardım göstərilməsindən başlamış insan haqlarının inkişafına və müdafiəsinə qədər bütün sahələrdə xeyli irəliləyiş əldə edilib, lakin bununla bərabər, hələ də ciddi problemlər qalmaqdadır. Digər dövlət tərəfindən silahlı təcavüzə, hərbi işğala və etnik təmizləmələrə məruz qalmış Azərbaycanın faktiki təcrübəsi bu problemlərin aktuallığına əyani sübutdur. Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə, yaranmış vəziyyətin beynəlxalq birlik tərəfindən pislənməsinə, münaqişənin nizamlanması üçün ATƏT çərçivəsində səylərin davam etdirilməsinə baxmayaraq, Dağlıq Qarabağ və Azərbaycanın bu bölgəyə bitişik yeddi rayonu hələ də hərbi işğal altındadır. Eyni zamanda, işğal olunmuş ərazilərin müstəmləkələşdirilməsini və ilhaq olunmasını təmin etmək məqsədilə həmin ərazilərdə qərəzli hərəkətlər törədilir, bu isə beynəlxalq hüquq normalarının açıq-aşkar pozulması deməkdir.

Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi deyib ki, müasir münaqişələrin çoxu daxili böhranlardır, onların əksəriyyətinin baş verdiyi mühitdəki yeni təhdidlər və problemlər vəziyyəti daha da gərginləşdirir. Eyni zamanda, son illərdə bu münaqişənin xarakteri xeyli dəyişib. Tamamilə aşkardır ki, son onilliklərdə dövlətdaxili və dövlətlərarası münaqişələr arasında hədd get-gedə aradan qalxmaqdadır. Dövlətlərin təcavüzü maskalamaq və digər dövlətlərin ərazisində münaqişələrin qızışdırılmasında öz rolunu gizlətmək cəhdləri çoxalır. Aşkardır ki, belə hallar beynəlxalq sistemin və mexanizmin gücləndirilməsini, habelə münaqişələrin qarşısının alınması və nizamlanması məsələləri ilə məşğul olan müxtəlif regional və subregional təşkilatların fəallaşmasını tələb edir.

Y.Əliyev vurğulayıb ki, beynəlxalq hüququ pozanlar hərbi işğalın nəticələrini möhkəmlətmək üçün bəzi hallarda regional mexanizmlərdən sui-istifadə edir, regional münaqişələrin və təhlükəsizliyin təmin edilməsi sahəsində digər problemlərin nizamlanmasına yönəlmiş səyləri pozurlar. O qeyd edib ki, böhranlara və münaqişələrə, habelə təcavüzkarlar tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinin təhrif olunması hallarına qarşı beynəlxalq mübarizənin üsul və vasitələrinin müəyyən edilməsində ardıcıllığı gözləmək zəruridir. Təbii ki, BMT-nin əsas orqanları tərəfindən qəbul edilmiş qətnamələrə riayət edilməsi və bununla əlaqədar hesabat verilməsi bu istiqamətdə kollektiv səylərin ayrılmaz tərkib hissəsinə çevrilməlidir. Y.Əliyev deyib ki, beynəlxalq münasibətlərdə əsas normativ çərçivələr BMT Nizamnaməsinin məqsədləri və prinsipləri ilə müəyyən edilir. Münaqişələrin əsas səbəblərindən və xarakteristikalarından asılı olmayaraq, onların nizamlanmasında hamılıqla qəbul edilmiş qaydaların və onların universal tətbiqinin alternativi yoxdur.

Y.Əliyev çıxışının sonunda vurğulayıb ki, dövlətlərin öz üzərinə götürdüyü, bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə, onların beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət prinsipinə əsaslanan öhdəliklərin vicdanla yerinə yetirilməsi beynəlxalq və regional sülhün və təhlükəsizliyin qorunması üçün zəruri ilkin şərt, iqtisadi əməkdaşlığın və davamlı inkişafın əsasıdır. Yeniləşdirilmiş və gücləndirilmiş çoxtərəfli sistemin dəstəklənməsi bizim ümumi vəzifəmizdir. Beynəlxalq təhlükəsizliyin təmin olunmasında dövlətlərin, regional, subregional və digər hökumətlərarası təşkilatların iştirakı, onların BMT ilə sıx əməkdaşlığı möhkəmləndirilməli və dünyanın yenidən formalaşdırılmış arxitekturasına inteqrasiya edilməlidir. Azərbaycan bu prosesdə fəal tərəfdaş olaraq qalacaq.

# Azərbaycanda mötəbər tədbirlərin yüksək səviyyədə təşkil olunmasında könüllülərin rolu böyükdür

Dekabrın 7-də Bakı Konqres Mərkəzində Azərbaycan Respublikası Gənclər Fondunun, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil, Gənclər və İdman nazirliklərinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşəbbüsü ilə yüzlərlə gəncin və bütün könüllü təşkilatlarının təmsil olunduğu Azərbaycan könüllülərinin həmrəylik festivalı keçirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Konqres Mərkəzinin foyesində ölkəmizdə könüllülük hərəkatına dair stendlər quraşdırılıb, 70-dək şirkətin iştirakı ilə əmək yarmarkası təşkil olunub.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov festivalın açılışında çıxış edərək ölkəmizdə könüllülük hərəkatının inkişafı və təbliği istiqamətində görülən işlərdən danışıb. O, könüllü gənclərimizin beynəlxalq arenada qazandıqları uğurlardan və Azərbaycan dövlətinin, xüsusilə Prezident İlham Əliyevin könüllülük hərəkatına diqqət və qayğısından söhbət açaraq deyib: "Bu gün ilk dəfə keçirilən festivalda ölkəmizdə könüllülük hərəkatının üzvləri iştirak edirlər. Festival çərçivəsində həmçinin doqquz təşkilat öz stendlərində könüllülük fəaliyyəti ilə bağlı gördükləri işlərə dair təqdimatlar edirlər. Könüllülük fəaliyyətinin əsasında cəmiyyət naminə təmənnasız işlərin görülməsi dayanır. Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar. Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Eyni zamanda, bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Gənclər Fondu da könüllülük fəaliyyətinə dəstək olan qurumlardan biridir. Fondun fəaliyyət göstərdiyi yeddi il ərzində bu istiqamətdə yüzlərlə layihə icra olunub. Azərbaycanda keçirilən beynəlxalq səviyyəli tədbir və yarışların uğurlu təşkilində könüllülərin rolu böyükdür. Buna görə də onlara dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva könüllülərə, onların fəaliyyətinə yüksək dəyər verirlər. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması, cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır".

Fondun icraçı direktoru bütün könüllüləri təbrik edib, onlara uğurlar arzulayıb.

Gənclərin Dünya Assambleyası beynəlxalq təşkilatının baş katibi Ediola Paşollari çıxışında Beynəlxalq Könüllülər Gününün tarixi barədə məlumat verib. O, könüllülük fəaliyyətinin gənclərin inkişafına təkan verdiyini, onlara humanistlik duyğuları aşıladığını diqqətə çatdırıb.

Rusiya Federasiyasının Milli Gənclər Şurasının sədri Qriqori Petuşkov Beynəlxalq Könüllülər Günü münasibətilə Azərbaycan gənclərinə təbriklərini çatdırıb. Könüllülüyü nəcib fəaliyyət adlandıran Q.Petuşkov könüllülərimizin fəaliyyətini yüksək qiymətləndirib. Qonaq həmçinin öz ölkəsində gənclərin könüllülük fəaliyyətindən də danışıb.

Tədbirin gedişində "ASAN Könüllüləri"nin, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin, "Formula 1 Könüllüləri"nin və "Bir Könüllüləri"nin nümayəndələri təmsil etdikləri qurumların fəaliyyəti barədə məlumat veriblər.

Sonra Azərbaycan Respublikası Gənclər Fondunun "Gənc könüllü" proqramının təqdimatı olub.

Rəsmi hissədən sonra festival işini "Tələbə və gənclərin könüllülük fəaliyyətinə cəlb edilməsi, Könüllülük hərəkatının inkişafı sahəsində real uğur nümunələri", "İnklüziv könüllülük - könüllülüyü ictimaiyyətə necə açıq etmək olar?" və "Könüllülük sahəsində beynəlxalq təcrübə və standartlar" mövzularında paralel sessiyalarla davam etdirib.

Festival çərçivəsində həmçinin Bakı Konqres Mərkəzinin foyesində oyun, əyləncə və intellektual zonalar yaradılıb, gənclər arasında müxtəlif maraqlı oyunlar və müsabiqələr keçirilib, fərqlənənlər qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Panel müzakirələrdə fəal iştirak edən və təşkilatlar tərəfindən namizədliyi irəli sürülmüş könüllülər sertifikatlarla təltif olunublar. Festival çərçivəsində həmçinin il ərzində yüksək fəallıq göstərən 100 gənc üçün ikigünlük qış düşərgəsi təşkil ediləcək.

# Vətəndaşların qəbulu keçirilib

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov dekabrın 7-də İmişli şəhərində Sabirabad, Saatlı, Hacıqabul və İmişli rayonlarının sakinlərinin, həmçinin həmin rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.

Fövqəladə hallar naziri tərəfindən qəbul edilən 14 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Bundan başqa, kadr məsələləri ilə bağlı 34, digər məsələlərlə bağlı müraciət etmiş 45 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

* * *

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov dekabrın 7-də Biləsuvarda vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Gənclər evində keçirilən qəbulda Ağcabədi, Beyləqan, Biləsuvar və İmişli rayonlarından 30-a yaxın vətəndaşın gənclər, idman və digər sahələrlə bağlı müraciətləri dinlənilib.

Gənclər sahəsi üzrə müraciətlər qeyri-hökumət gənclər təşkilatlarının yaradılmasına dəstək göstərilməsi, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin sayının artırılması, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi, fəaliyyəti və s. məsələləri əhatə edib.

İdman sahəsi üzrə müraciətlər isə fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təminatı, yeni olimpiya idman komplekslərinin, idman mərkəzlərinin tikintisi və s. məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

* * *

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, dekabrın 7-də Neftçala Mərkəzi Rayon Xəstəxanasında keçirilən qəbul zamanı nazir Oqtay Şirəliyev Şirvan, Salyan, Hacıqabul, Biləsuvar və Neftçaladan olan vətəndaşların sağlamlıq problemləri, işlə təminat və digər bu kimi məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan problemlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

***AZƏRTAC***

# İlham Əliyevin iqtisadi siyasəti şəffaf biznes mühiti formalaşdırıb

*Əvvəli 1-ci səh.*

Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq olunur. Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 15 il ərzində artması, ölkəmizdə iş yerlərinin 75 faizinin məhz özəl sektorun payına düşməsi bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

Son illərdə ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, ölkədə bəzi məhsullara ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilmişdir. Bu baxımdan ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir. Sahibkarlıq subyektlərində yoxlamaların 2021-ci ilədək dayandırılması öz müsbət nəticələrini vermişdir.

Eyni zamanda, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmış, lisenziyalar müddətsiz müəyyən edilmiş, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılmış, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinə və "Elektron lisenziya" portalının yaradılmasına başlanılmışdır. Əvvəllər müxtəlif sahibkarlıq fəaliyyətlərinə bütünlükdə 330 icazə tələb olunurdusa, "Lisenziyalar və icazələr haqqında" qanunun qüvvəyə minməsi ilə bütün icazələr vahid sənəddə göstərilir, onların sayı 86-ya, lisenziyalar 59-dan 37-yə endirilib.

Dekabrın 4-də Bakı Ekspo Mərkəzində "Bakutel-2018" sərgisində Prezident İlham Əliyev bu gün Azərbaycanın biznes sahəsində dünyanın aparıcı ölkələri sırasında olduğunu bəyan edib: "**Azərbaycan iqtisadiyyatının davamlı tərəqqisi üçün qeyri-neft sektorunun inkişafı bizim uğurla həll etdiyimiz əsas vəzifəmizdir. Buna görə də biznesə yaxşı şəraitin yaradılması məqsədilə infrastruktur layihələrinin inkişafı üçün çox iş görülür. Biznesin həvəsləndirilməsi, sahibkarlara köməklə bağlı xeyli layihələr var. Bütövlükdə investisiya, biznes mühiti Azərbaycanda yaxşılaşır. Dünya Bankının son məlumatlarına, "Doing busines" hesabatına görə Azərbaycan 25-ci yerdədir. Biz bir il ərzində 32 pillə irəliləmişik və bu gün biznes sahəsində dünyanın aparıcı ölkələri sırasındayıq**".

Qeyd edək ki, əldə edilmiş uğurların davamlığının təmin olunması sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, sahibkarlara, xüsusilə də kiçik və orta sahibkarlara göstərilən texniki, maliyyə, hüquqi, metodiki və s. xidmətlərin əhatə dairəsinin genişləndirilməsini, keyfiyyət səviyyəsinin daha da artırılmasını zəruri edir, bu sahədə institusional yanaşmanı şərtləndirir. Bütün bunları nəzərə alaraq Azərbaycan Prezidenti "Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" 28 dekabr 2017-ci il tarixli fərman imzalayıb. Fərmana əsasən, İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılıb. Agentliyin qarşısında qoyulan əsas vəzifə ölkədə kiçik və orta sahibkarların iqtisadiyyatda rolunun və əhəmiyyətinin artırılması, dövlət orqanları və təşkilatlarının bu sahədə fəaliyyətinin əlaqələndirilməsi, bu sahə üzrə dövlət dəstəyi sahəsində qabaqcıl beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Sahibkarlığın maliyyə resursları ilə təmin olunması əsas mexanizmlərdəndir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu fəaliyyət göstərdiyi dövrdə investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72%-i aqrar sektorun, 28%-i sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75%-i regionların, 25%-i Bakı qəsəbələrinin payına düşür. 2018-ci ildə geri qaytarılan vəsaitlər hesabına sahibkarlara minimum 170 milyon manat güzəştli kreditin verilməsi təmin ediləcək. Artıq sahibkarlıq subyektlərinə 113,1 milyon manat güzəştli kredit verilib.

Dövlət başçısının "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 31 iyul tarixli fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsi yaradılıb.

Bütün bunlar ondan xəbər verir ki, Prezident İlham Əliyevin iqtisadi siyasəti şəffaf biznes mühiti formalaşdırıb. Bəli, sahibkarlar sinfinin formalaşması Azərbaycanın inkişafına çox böyük töhfədir. Bu da sirr deyil ki, azad sahibkarlıq yalnız o ölkələrdə uğurla inkişaf edir ki, orada sahibkarlara, sahibkarlar sinfinə dövlət tərəfindən qayğı var, diqqət var. Bu gün bu qayğını bütün sahibkarlar hiss edirlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gələcəkdə də Azərbaycanda sahibkarlığın inkişafına böyük diqqət göstəriləcək, sağlam rəqabət təmin olunacaq. Azad sahibkarlığın inkişafı, onların maneələrlə üzləşməmələri üçün dövlətimiz üzərinə düşən məsələləri həll edir. Eyni zamanda, sahibkarlar buna adekvat olaraq özəl sektorda üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Bakutel-2018" bir sıra yeniliklərlə yadda qaldı

Bakı Ekspo Mərkəzində keçirilən XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisi-konfransı "Bakutel-2018" başa çatıb.

AZƏRTAC xəbər verir ki, "Bakutel-2018" sərgisi Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU), Regional Rabitə Birliyi (RRB), Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilib. Sərginin təşkilatçısı qismində "Caspian Event Organisers" şirkəti, baş sponsoru qismində müntəzəm iştirakçısı olan "Azercell Telecom" çıxış edib.

Bu il sərginin fəxri qonaqları arasında Rusiya, Türkiyə, Belarus, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, İran, Özbəkistan, Latviya, Bolqarıstanın İKT sahəsi üzrə nazirləri və yüksək rütbəli nümayəndələri yer alıb.

Dekabrın 4-dən 7-dək keçirilən sərgidə 20 ölkədən 230 şirkət qatılıb və sərgidə şirkətlər öz maraqlı, diqqəti cəlb edən stendləri ilə yadda qalıb. İştirakçıların arasında İKT şirkətləri, mobil operatorlar, rabitə operatorları, internet provayderləri, sistem inteqratorları, tanınmış brendlərin distribüterləri və gənc ixtiraçılar olub. Həmçinin sərgi çərçivəsində bir sıra yeniliklər nümayiş olunub, konfranslar, tədbirlər keçirilib.

Sərginin açılış mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə "Bakutel" sərgisinin fəaliyyəti, sərginin İKT sahəsinə verdiyi töhfələr və yaratdığı imkanlardan bəhs edib.

Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) MDB ölkələri üzrə regional bölməsinin rəhbəri Kirill Oparin və "Caspian Event Organisers" şirkətinin direktoru Edvard Ştron sərginin işinə uğurlar arzu edib.

Dekabrın 4-də Bakı Ekspo Mərkəzinə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva "Bakutel-2018" sərgisi ilə tanış olublar.

Sərgidə 10 ölkə - ABŞ, Türkiyə, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Fransa, İtaliya, Polşa, Xorvatiya, İran, Sloveniya milli pavilyonla təmsil olunub. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeli qurum və müəssisələri eyni milli pavilyonda məhsul və xidmətlərini, həyata keçirdiyi layihələri təqdim edib. Pavilyonda telekommunikasiya, poçt, yüksək texnologiyalar, o cümlədən nanotexnologiyalar, "Elektron imza" infrastrukturu, "Data Mərkəzi"n "bulud" texnologiyası əsasında xidmətləri üzrə həyata keçirilən layihələr və əldə edilmiş ən son nailiyyətlər, eləcə də nazirlik tərəfindən dəstək alan bir sıra startap layihələr nümayiş olunub. Həmçinin kompleksin ikinci zalındakı ayrıca stenddə e-ticarət ("ecommerce") müəssisələri fəaliyyət göstərib.

Sərginin keçirildiyi günlərdə Azərbaycanda poçt rabitəsinin 200 illik yubileyinə həsr olunmuş muzey fəaliyyət göstərib. Burada poçt tarixinə aid eksponatlar, məktublar, teleqramlar, rabitə qurğuları, komutator telefonları, "Morze" əlifbası, sahənin dövrlər üzrə rəsmi sənədləri, poçt və rabitə işçisinin geyim formaları, istifadə etdiyi əşyalar, bağlama, məktub, kiçik paketlər və banderol nümunələri nümayiş olunub. Eyni zamanda, II Dünya müharibəsi illərinə aid poçt göndərişləri, əsgər məktubları, poçt qutuları, ötən əsrin 70-80-ci illərinə təsadüf edən poçt nümunələri sərgilənib. Həmçinin ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə poçt sahəsinin inkişafını xarakterizə edən xüsusi güşə fəaliyyət göstərib. "Azərpoçt" MMC-nin stendində sərginin bütün iştirakçıları üçün hədiyyəli lotereya keçirilib.

Tədbirin ikinci iş günü eksponentlərin iştirakı ilə keçiriləcək axşam ziyafəti çərçivəsində Azərbaycanın informasiya və telekommunikasiya texnologiyaları sahəsində çalışan ən uğurlu qadınlara "AWITA 2018" "Azerbaijan - The Women in IT Award" mükafatının təqdimetmə mərasimi olub.

Bu il təşkilatçılar sərgi çərçivəsində ilk dəfə olaraq yeni müzakirə platforması "Bakutel Tech Talks" proqramını da təşkil edib. "Bakutel Tech Talks" tədbiri bir sıra faydalı məlumatlar və qeyri-adi məzmunu ilə auditoriyanın diqqətini cəlb edib. "Bizimkilər" adlı sessiya keçirilib. Sessiyanın adını şərtləndirən amil dünyaca məşhur olan xarici IT şirkətlərində çalışan həmvətənlərimizin spikerlər qismində çıxış etməsidir. "Bizimkilər" sessiyasının məqsədi tədbirə toplaşan auditoriyanı nəhəng beynəlxalq IT şirkətlərinin təcrübəsi, eləcə də sənaye yenilikləri və istehsal sirləri ilə tanış etmək olub.

"Bakutel Tech Talks" proqramı "Baxış bucağınızı bizimlə IT-iləyin" şüarı altında panel müzakirələri, sonra isə öz işini "Startapdan böyük biznesə" sessiyası ilə davam etdirib. Startap və gənc iş adamlarının dəvət olunduğu bu sessiyada təcrübəli məruzəçilər dinləyiciləri istənilən ideyanı reallaşdırmağın mümkün olduğuna əmin etməyə çalışıb. Beləliklə, "Tech Talks" proqramında sənayenin ən aktual məsələlərinə toxunulub və tədbir ideya rəhbərləri ilə müzakirələr üçün müasir təmayüllü platformaya çevrilib. Bundan sonra hər il sərgi çərçivəsində "Tech Talks" proqramının keçirilməsi planlaşdırılır.

Bu il "Bakutel-2018" sərgisində təqdim olunan yeniliklərdən biri də alman alimlərinin ixtirası olan ultramodern texnologiyası əsaslı "RoboKeeper"dir. "RoboKeeper" - dünyanın ən sürətli qapıçısı hesab edilir.

Sərgidə iştirak edən bir sıra qurumlar - Bakı Beynəlxalq Avtovağzalı Kompleksi, Azərbaycan Dövlət Reklam Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Dövlət Reklam Agentliyi, "Azərpoçt" MMC və digər qurumlar bir sıra yenilikləri təqdim edib, öz stendləri ilə ziyarətçilərin maraqlarına səbəb olub.

Ənənəvi olaraq hər il keçirilən "Bakutel" sərgisinin media tərəfdaşı olan AZƏRTAC da sərgidə öz stendi ilə təmsil olunub. AZƏRTAC-ın ekspozisiyasındakı nəşrlər, multimedia məhsulları, informasiyanın istehsalı və yayılması sahəsində texniki imkanları sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb.

"Bakutel-2018" sərgisinin ziyarətçiləri sırasında Bakı şəhərində yerləşən 2 və 3 saylı uşaq evlərinin sakinləri də yer alıb. 60-dan çox oğlan və qız sərgidə təmsil olunan pavilyon və stendləri ziyarət edib.

Qeyd edək ki, sərgi çərçivəsində bir sıra sənədlər imzalanıb və konfranslar keçirilib. Belə ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və sərginin təşkilatçıları olan "Iteca Caspian" və "Caspian Event Organisers" şirkətləri arasında birgə əməkdaşlığa dair Anlaşma Memorandumu, "Azərpoçt" MMC ilə "Rusiya Poçtu" arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Bu il sərginin işgüzar proqramı da yenilənərək daha dolğun olub. Proqramın açılışı Regional Rabitə Birliyinin Rabitə Administrasiyaları Rəhbərləri Şurasının 54-cü toplantısı ilə baş tutub. Bunun ardınca Azərbaycan, İran, Rusiya və Türkiyənin İKT nazirlərinin dördtərəfli görüşü keçirilib. Həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin İKT nazirlərinin yüksək səviyyəli görüşü olub. Daha sonra estafeti "Davamlı inkişaf üçün rəqəmsal əməkdaşlıq" mövzusuna həsr olunmuş Birinci Xəzər İnnovasiya Konfransı qəbul edib. Belarus-Azərbaycan 4-cü İKT Forumu da sərgi çərçivəsində baş tutub.

Qeyd edək ki, Xəzər İnnovasiya Konfransı "Bakutel-2018" sərgisi çərçivəsində ilk dəfə keçirilib. Konfransın keçirilməsinin təşəbbüskarı Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir. Tədbir "Genişzolaqlı rabitə", "Süni intellekt", "Əşyaların İnterneti", "Elektron xidmətlər", "İKT yönlü startaplar və innovativ sahibkarlıq", "Dördüncü sənaye inqilabı", "Elm tutumlu istehsal" və "Kiberhazırlıq" kimi mövzuları əhatə edib. Birinci Xəzər İnnovasiya Konfransı hökumət nümayəndələri, sənaye liderləri, tənzimləyici struktur və beynəlxalq təşkilatların rəsmi təmsilçilərini, o cümlədən nəhəng regional telekommunikasiya və peyk operatorlarının rəhbərlərini bir araya gətirib. Gələcəkdə bu konfransın beynəlxalq "Bakutel" sərgisi çərçivəsində hər il keçirilməsi nəzərdə tutulub.

# "Kardeş kalemler" jurnalı noyabr nömrəsini görkəmli yazıçı Mir Cəlal Paşayevin 110 illiyinə həsr edib




Türkiyədə nəşr olunan "Kardeş kalemler" aylıq Avrasiya ədəbiyyat jurnalı noyabr buraxılışını görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr edib.

AZƏRTAC xəbər verir ki, jurnalın bu nömrəsi Avrasiya Yazarlar Birliyi və "Buta" Azərbaycan mədəniyyətini yayma və yaşatma dərnəyinin ortaq layihəsi olaraq hazırlanıb. Jurnalda akademik Nizami Cəfərovun "Mir Cəlal və dünya xalqları", professor Təyyar Salamoğlunun "Bir gəncin manifesti" esse romanı", yazıçı-şair İftixar Piriyevin "Mir Cəlalın manifesti", filologiya elmləri doktorları Almaz Ülvinin "Mir Cəlal: bir yarpaq söz", Vaqif Yusiflinin "Mir Cəlal həqiqətləri", Dünya Gənc Türk Yazıçılar Birliyi Məsləhət Şurasının rəhbəri Əkbər Qoşalının "Mir Cəlal Paşayev", gənc tədqiqatçı Şahanə Muşfiqin "Həcv və satira janrında iki usta isim: Mir Cəlal və Əziz Nesin" məqalələri yer alıb. Bundan başqa, yazıçının "Dostumun qonaqpərvərliyi" və "Nazik mətləb" hekayələri Oktay Hacımusanın tərcüməsində türkdilli oxuculara təqdim olunub.

Məqalələrdə Mir Cəlal Paşayevin zəngin yaradıcılıq yolu ətraflı təhlil olunur, ədibin böyük ədəbi ustalıqla qələmə aldığı əsərlərin mahiyyətindən bəhs edilir. Tədqiqatçılar əsaslandırırlar ki, Mir Cəlal Paşayev əsərləri bütün dövrlərdə cəlbedici olmuş, geniş oxucu auditoriyasına sahib çıxa bilmişdir.

Nəfis tərtibatda oxucuların görüşünə gələn jurnalda görkəmli ədibin həyatını əks etdirən maraqlı fotolara da yer ayrılıb.

# Naxçıvan Muxtar Respublikasında təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir

Dekabrın 7-də Naxçıvan Muxtar Respublikası müəllimlərinin konfransı keçirilib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyub, ulu öndərin xatirəsinə ehtiramlarını bildiriblər. Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlarla tanışlıqdan sonra abidə önündə xatirə şəkli çəkdirilib.

Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun konfrans iştirakçılarına təbrik məktubu oxunub.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək muxtar respublikada təhsilə göstərilən qayğıdan danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər görülür, təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir. Ötən dövrdə muxtar respublikanın şəhər, rayon və kəndlərində 200-dən çox təhsil müəssisəsi, o cümlədən məktəbəqədər və məktəbdənkənar təhsil, musiqi məktəbləri, Heydər Əliyev adına Hərbi Lisey, ali və orta ixtisas təhsili müəssisələri üçün yeni tədris korpusları tikilib istifadəyə verilib. Bu işlər 2018-ci ildə də davam etdirilib, 2096 şagird yerlik 8 ümumtəhsil məktəbi, Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Tibb Kolleci və Ordubad Rayon Təhsil Şöbəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Hazırda 3 ümumtəhsil müəssisəsi və Naxçıvan Dövlət Universitetinin tibb fakültəsi üçün binaların tikintisi davam etdirilir.

Muxtar respublikanın ümumtəhsil məktəblərində 5500-dən artıq kompüter və 600-dən çox elektron lövhə quraşdırılıb, laboratoriyalar və fənn kabinələri şagirdlərin istifadəsinə verilib, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin olunub. Təhsil müəssisələrinin pedaqoji kadrlara olan tələbatını ödəmək məqsədilə muxtar respublikanın ali təhsil müəssisələrində pedaqoji yönümlü ixtisaslar açılıb, yüksək səviyyəli müəllim kadrların hazırlanması diqqətdə saxlanılıb.

Qeyd olunub ki, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası da diqqətdə saxlanılıb, məhdud fiziki imkanlı uşaqlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün isə audio və elektron kitabxana yaradılıb.

Təhsil naziri qeyd edib ki, muxtar respublikanın təhsil müəssisələrində şagird, tələbə və müəllimlərin vahid geyim formasından istifadə etməsi tədrisin və təlim-tərbiyənin yüksəldilməsinə öz müsbət təsirini göstərib. 2018-ci ildən pedaqoji kadrların müsabiqə ilə işə qəbulu isə gənc kadrların işlə təmin olunmasına, eləcə də ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təminatına geniş imkanlar açıb. Hazırda muxtar respublikanın ümumtəhsil məktəblərində 49 min 224 şagirdin təhsili ilə 6642 müəllim məşğul olur. Onlardan 44-ü yeni tədris ili ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçirilən müsabiqədə yüksək nəticə göstərərək işlə təmin olunub. Hazırda rayon mərkəzindən uzaq məsafədə yerləşən kənd məktəblərində fəaliyyət göstərən 80 müəllimə həvəsləndirmə tədbirləri tətbiq edilib. Müəllimlərin ictimai fəallığı da artıb. Belə ki, muxtar respublika müəllimlərindən 13-ü Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır. Müəllimlərin maddi rifah halının yaxşılaşdırılması da diqqətdə saxlanılıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqları və dərs saatları artırılıb.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun rektoru Elbrus İsayev, Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova, Naxçıvan Qızlar Liseyinin direktoru Aidə Allahverdiyeva və Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin müəllimi Ülvanə Məmmədli çıxış ediblər.

Tədbirin aparıcıları görkəmli pedaqoqların əsərlərindən parçalar oxuyub, təhsillə bağlı müdrik fikirləri konfrans iştirakçılarının diqqətinə çatdırıblar.

Sonra görkəmli pedaqoq, Naxçıvanda ilk dünyəvi məktəbin əsasını qoymuş maarifçi Məhəmməd Tağı Sidqiyə həsr olunmuş "Xalqın müəllimi" sənədli filminə baxış olub.

# Hesablama Palatasının növbəti kollegiya iclası

Dekabrın 7-də Hesablama Palatasının fəaliyyətə başlamasının 17 ili tamam olur.

Hesablama Palatasının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında palata sədri Vüqar Gülməmmədov dekabrın 7-də Hesablama Palatasının fəaliyyətə başlamasının 17-ci ilinin tamam olması münasibətilə palata üzvlərini və əməkdaşlarını, qurumun fəaliyyətə başladığı ilk gündən burada işləyən əməkdaşları xüsusi qeyd edərək təbrik edib, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

Sentyabrın 5-dən "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının yeni Qanununun qüvvəyə mindiyini qeyd edən sədr Vüqar Gülməmmədov Hesablama Palatasının qanunda müəyyən edilmiş fəaliyyət istiqamətləri, hüquqları, vəzifələri və bunların həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsi üzrə qarşıda duran işlər barədə danışıb.

Kollegiya iclasında həyata keçirilmiş bir sıra nəzarət tədbirləri üzrə hesabatlar müzakirə olunub. Müzakirə olunan məsələlər arasında "Dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılan vəsaitlərdən istifadəyə dair; Bərdə Regional Mədəniyyət İdarəsinə ayrılan büdcə vəsaitlərinin və büdcədənkənar daxilolmaların proqnozlaşdırılması və icrasına dair; "Hesablama Palatası tərəfindən kənar dövlət maliyyə nəzarəti tədbirlərinə hazırlıq, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları" yer alıb.

# Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri ilə toplantı keçirilib

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, dekabrın 7-də xarici dövlətlərin silahlı qüvvələrinin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri üçün illik yekun toplantı keçirilib.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplantıda 28 xarici ölkədən və beynəlxalq təşkilatdan 31 nümayəndə iştirak edib.

Nazirliyin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi, general-mayor Hüseyn Mahmudov attaşelərə regiondakı hərbi-təhlükəsizlik vəziyyəti, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, eləcə də orduda aparılan islahatlar, beynəlxalq hərbi əməkdaşlıq çərçivəsində il ərzində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib və 2019-cu ildə planlaşdırılan fəaliyyətləri diqqətə çatdırıb. İdarə rəisi hərbi attaşelərin suallarını cavablandırıb.

Qonaqlar belə tədbirlərin keçirilməsinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib və səmərəli əməkdaşlığın gələcəkdə də davam edəcəyinə ümidvar olduqlarını vurğulayıblar.

# Sərhədçilər 2 nəfəri dənizdə batmaqdan xilas ediblər

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi tərəfindən Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsi davam etdirilir.




2018-ci ilin 4 dekabr tarixində "Heydər Əliyev" adına Bakı Dərin Özüllər Zavodu istiqamətində texniki nasazlıq səbəbindən batma təhlükəsi ilə üzləşən "SA-16129" bort nömrəli, "Yamaha-75" mühərrikli üzmə vasitəsinin 2 nəfərdən ibarət heyəti tərəfindən Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin sahil nəzarəti bölməsinə kömək göstərilməsi barədə müraciət edilmişdir.

Sahil nəzarəti bölməsi tərəfindən mərkəzi istiqamətində xidmətdə olan sərhəd gözətçi gəmisinə təhlükədə olan üzmə vasitəsinin koordinatları ötürülmüşdür.

Sərhəd gözətçi gəmisi tərəfindən dalğalı hava şəraitində həyata keçirilmiş axtarış-xilasetmə tədbirləri nəticəsində texniki nasazlıq səbəbindən Makarov bankasının qərb istiqamətində sahildən 13 mil məsafədə dənizdə qalmış balıqçı qayığı aşkar edilmişdir. Gəmi tərəfindən üzmə vasitəsi yedəyə alınmış, qayıqda olan 2 nəfər xilas edilərək sərhəd gözətçi gəmisinin bortuna götürülmüşdür.

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslər Bakı şəhər sakinləri Ququşev Nikolay Anatolyeviç və İbrahimov Ağasəf Sahib oğlu olmuşlar.

***"Azərbaycan"***

# "AZƏRBAYCAN" – 100 İstiqlalımızın yadigarı, həmyaşıdı və tərənnümçüsü

100 yaşlı "Azərbaycan" qəzetinin arxiv nüsxələri o dövrün ruhunu duymaq, xalqımızın taleyüklü məsələləri ilə bağlı aydın nəticələrə gəlmək, müxtəlif ictimai problemlərin həlli yollarını tapmaq üçün mənəvi bələdçidir. Bu qəzetin müəllifləri zəmanələrinin böyük mütəfəkkirləri idi. Onların "Azərbaycan" qəzetində dərc etdirdikləri məqalələr ayrı-ayrı faktlara bu şəxsiyyətlərin hər birinin nəzərləri ilə baxmağa imkan yaradır. Bugünümüz üçün də aktuallıq kəsb edən bir çox həqiqətlərin onların nurlu təfəkkürü işığında təhlilinə böyük kömək göstərir.

Təəssüflər olsun ki, Azərbaycan oxucusu uzun illər bu yazılardan xəbərsiz qalmışdı. Sovet ideologiyası həmin məqalələrlə birgə onların qələmə aldıqları gerçəkləri də qapalı arxivlərdə məhbus taleyinə məhkum etmişdi. Dövlət müstəqilliyimizin bərpasından, bir çox gizlinlər kimi "Azərbaycan" qəzetinə aid arxivlər açıldıqdan sonra indi həmin yazılar da oxucuların ixtiyarındadır.

# Fitnələrlə döyüşən qələmlər

## Dövrün aktual problemləri "Azərbaycan"ın səhifələrində dolğun əks olunurdu

### Erməni məsələsi

"Azərbaycan" qəzetinin hər nömrəsində erməni məsələsi gündəmdə olub. Xalqımız tarix boyu erməni millətçilərinin ağır zərbələrinə məruz qalıb, hiylə və xəyanətlərinin qurbanına çevrilib. Dünyanın bir sıra dövlətləri bu amildən faydalanıb, onları öz maraqlarına uyğun şəkildə istiqamətləndirib, millətçi daşnak şovinistlərinə dəstək verib. İri dövlətlərin himayəsi altında "Böyük Ermənistan" yaratmaq üçün hər cür vasitə və yollardan istifadə edib, vəhşi üsullardan belə çəkinməyib.

O dövrdə yaşamış qabaqcıl ziyalılarımız da təbii ki, vəziyyətin fərqində olublar. Yalnız Cənubi Qafqazda deyil, bütün Rusiya müsəlmanlarının dağınıq halda olan qüvvələrinin vahid bir mərkəzdə birləşdirilməsi Azərbaycanın siyasi xadimləri qarşısında vacib məsələ kimi durub. Onlar təşkilatlanmağa çalışıblar. Bu isə daşnakları və bolşevikləri böyük qorxuya salıb. Erməni-rus bolşevik narahatlığının əsas səbəbi o idi ki, yerli əhali Azərbaycan ziyalılarına dəstək verirdi. Onların qurduqları təşkilatlar ərafında bir araya gəlirdilər.

Azərbaycanın ictimai-siyasi fikir tarixinin görkəmli nümayəndələri Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Məhəmmədəmin Rəsulzadə, Ceyhun bəy Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Üzeyir bər Hacıbəyli, Ömər Faiq Nemanzadə, Şəfi bəy Rüstəmbəyli, Xəlil İbrahim, Yusif Vəzir Çəmənzəminli, Əli Şövqi, Əhməd Cavad, Əliabbas Müznib, Fərhad Ağazadə və başqaları əsərlərində bugünədək problem kimi mövcud olan Qarabağ məsələsini, erməni fitnə-fəsadlarını, düşmənlərimizin təcavüzkar, millətçi niyyətlərini uzaqgörənliklə duymaları və ifşa etmələri, onlara layiqli cavablar vermələri aydın görünür. Yazılarında istiqlalımız və onun mühafizəsi, ana dilimizin zənginliyi, xalqın həyat tərzi, baş verən hadisələrin məntiqli şərhi, onların çözülməsi yolları öz əksini tapır.

"Azərbaycan" qəzetində çıxan məqalələrdə 1918-1919-cu illərdə ermənilərin Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qarabağda, Zəngəzurda törətdikləri qanlı əməllərin, müxtəlif təxribatların arxasındakı səbəblər üzə çıxarılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin gələcəyini, ümumilikdə regionda sülh və təhlükəsizliklə bağlı niyyətləri təhdid edən bu əməllərin qarşısının alınmasından ötrü təkliflər verilmişdir. Həmin siyasi məzmunlu təhlillər müasir dövrümüz üçün də çox əhəmiyyətlidir. Çünki "Azərbaycan" qəzetinin toxunduğu məsələlər, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, bu siyasəti həyata keçirməkdən ötrü müxtəlif təxribatçı ünsürlərdən istifadə, beynəlxalq aləmin bu məsələyə yanaşmalarındakı ikili standartlar yenə də eyni məzmunda və daha geniş miqyasdadır. Bir sözlə, zaman dəyişsə də, dərd həmin dərd, bəla həmin bəla olaraq qalmaqdadır...

Xalqa yol göstərən bu publisistik yazılar tarixin ən çətin mübarizələr dövründə meydana çıxmış və ictimai-fəlsəfi fikrin inkişafında mühüm rol oynamışdır.

### Xalqa yol göstərən publisistika

Üzeyir bəy Hacıbəyli 1918-ci ildə "Azərbaycan" qəzetinə gələndə artıq özünü yetkin bir siyasi publisist və ictimai xadim kimi təsdiq etmişdi. 33 yaşlı yazarın hər gün baş verən hadisələrə baxışları da fərqli idi, problemləri səlist publisistik üslubda qələmə alırdı. O, xalqın həyatı, ruhi aləmi, mənəviyyatı, tarixi və mədəniyyəti ilə dərindən tanış idi, onun dərdlərini, ehtiyaclarını bilir və görürdü. Üzeyir bəyin publisistikasının xalqla, xalqın mübarizəsi, gündəlik problemləri ilə bağlı olması onun demokratik görüşlərinin saflaşmasına kömək etmişdir. Ədibin publisistik əsərləri üçün səciyyəvi olan ilk böyük keyfiyyət ideyalılıq, aydın məslək və əqidəlilik idi.

O, məqalələrindən birində - "Məslək nədir" adlı yazısında bu sualı belə cavablandırırdı: "Məslək - hər kəsin etiqad etdiyi bir yoldur. Ümumin xoşbəxtliyini, asayiş və məramını, rifah halını, tərəqqi və təkamülünü təqib edən hər bir məslək onun sahibi üçün müqəddəs əدد olmalıdır". Üzeyir bəyə görə insan bu cür məsləkə sadiq qalmalı və ona xəyanət etməməlidir. Məslək və əqidə barədə Hacıbəylinin o zaman belə hərarətlə yazması, mütərəqqi proseslərə, əqidələrə sədaqət, məhəbbət tələb etməsi təsadüfi deyildi. Bu sözlər, şübhəsiz ki, o dövrdə mühüm əhəmiyyətə malik idi və cəmiyyətin yaralı yerinə toxunurdu. Hər hansı bir məsləkə sadiq olmaq, mütərəqqi ideallar uğrunda mübarizədə fədakarlıq göstərmək barədə Üzeyir bəyin yazıları simalarını, cildini, cəbhəsini tez-tez dəyişən bir sıra ziyalılara qarşı güclü bir ittiham kimi səslənirdi.

Üzeyir bəyin mətbuatda 900-ə yaxın məqalə və felyetonu çap olunmuşdu ki, bunlardan bir qismi "Azərbaycan" qəzetinin payına düşür. Böyük yazar həm gündəlik hadisələrdən bəhs edir, həm gələcəyə diqqət yönəldir, eyni zamanda qaranlıq mətləblərə işıq salır. Onun erməni məsələsi, Qarabağ hadisələri ilə bağlı xeyli məqalələri çap olunmuşdur. "Əyri yol", "Qarabağ haqqında", "Fitnələr qarşısında", "Eyni müamilə gözləyirik", "Qara təhlükə", "Andranikin məsələsi", "Qarabağ hadisatı" və s. publisistik yazılarında Azərbaycanı parçalamağa, torpaqlarını işğal etməyə, əhalisini qırmağa cəhd edən qəddar, hiyləgər, təcavüzkar erməni millətçilərinin niyyəti uzaqgörənliklə açılıb göstərilirdi. Ü.Hacıbəylinin "Kirimirlər", "Nə istəyirlər", "Əsassız tələb", "Kim nəyin fikrində imiş", "Düşmənlərimizin fəaliyyəti", "Üzərimizdəki qara buludlar" kimi siyasi məzmunlu məqalələrində ermənilərin iç üzü ifşa olunur. Müəllif "Eyni müamilə gözləyirik" *("Azərbaycan", 5 may 1919, №172)* adlı məqaləsində göstərirdi ki, bədnam planlarını, terror və təcavüzkar aksiyalarını həyata keçirməkdə olan ermənilərin arxasında xarici bir qüvvə, xüsusi dəstək və gözəgörünməz əl vardır. Əks təqdirdə "Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdi ilə göstərməkdə olduqları inad həyasızlıq dərəcəsinə çatmazdı".

Böyük yazar öz publisistikasında xalqı ehtiyatlı olmağa, istiqlaliyyətini qorumağa səsləyirdi. Bu yazıları indi oxuduqca sovetlərin onlara nə üçün qadağa qoyduğu aydın şəkildə dərk edilir. Ü.Hacıbəyli "Qara təhlükə" *(Azərbaycan", 8 iyun 1919, №198)* məqaləsində erməni daşnaklarının böyük faciələr yarada biləcək niyyətlərini, millətin üzərində yaranan qorxulu təhlükəni hiss edirdi. O yazırdı: "Ermənilərə etibar yoxdur, çünki daşnaklar bu milləti etibarsız bir dərəcəyə çatdırıblar. Silahlı üsyanlar törətmək və müharibəyə səbəb olmaq üçün onlar aşkar və gizli işlər görüb bizi qafil edə bilərlər. Bu qəflət nəticəsində başımıza bəlalar gələ bilər". Bu sözlər Üzeyir bəyin ağrı və həyəcanla səsləndirdiyi xəbərdarlıq idi. O yazırdı ki, millətin azadlığı və bütövlüyü onun mübarizə ruhundadır. Bu ruhu sarsıtmaq istəyənlər, Qafqazda güclü bir türk dövlətinin mövcudluğunu gözü götürməyənlər, bu tarixi reallığın qarşısını almağa çalışanlar çoxdur... Ədib bu cür bədxahların millətin azadlıq ideallarını, mübarizə əzmini sarsıda bilməyəcəklərini vurğulayaraq yazırdı: "Bir vaxt yetişər ki, millət bir ruh və bir cisim olub son və qəti qərarını elan edər".

"Azərbaycan" qəzetinin saralmış arxiv səhifələri böyük publisistin ürək ağrıları, həyəcanlı fikirləri, sarsıntıları ilə doludur. Onun milli azadlıq ideallarını tərənnüm edən, vətənpərvərlik ruhunda yazılmış publisistik əsərləri sanki bugünkü tariximizin aynasında öz əksini tapıb. O, "Qurtuluş" adlı məqaləsində *("Azərbaycan", 15 sentyabr 1919, №274)* yazırdı: "Qurtuluş və xilasımız yolunda canlarını qurban verib bizə bu dünyada cənnət arzulayıb, özlərini o dünyada behiştə vasil edən möhtərəm şəhidlərin əziz məzarları üzərinə fatiəxan olmaqla özlərini yad və ruhlarını şad etmək hər bir azərbaycanlının müqəddəs borcudur".

1918-ci il dekabrın 15-də "Azərbaycan" qəzetinin 65-ci nömrəsində "Andranikin məsələsi" adlı məqalə dərc edilir. Hacıbəyli Üzeyir imzası ilə çıxan yazının məzmunu həmin dövrdə Andranik Ozanyanın Azərbaycanın Naxçıvan, Culfa və Zəngəzur bölgələrində törətdiyi qətliamlarla bağlıdır. Üzeyir bəy məqaləsində ilk növbədə Andranikin kimliyi barədə məlumat verir, onu oxucularına tanıdır. Yazı belə başlayır: "İngilis komandasının və qismən bizim hökumətimizin təhriri və şifahi tədabirinə rəğmən Qarabağ əhalisinin dadü-fəryadını yenə də eşitməkdəyik. Aşkardır ki, Bakıdan deyilən sözlər, nəsihətlər və xəbərdarlıqlar, hətta general Tomsonun təhdidi böylə, Andranikə heç də əsər eləmiyor. O, öz işindədir. Müsəlman kəndlərini dağıdır, əhalisini öldürür... ərzi-qüvvətcə zəif yerlərimizə soxulub bildiyini edir və Bakıdan gedən sifarişlərə aşkardır ki, məhəl-güzar olmur.

Zənni-acizanəmizlə Andranik məsələsinə ciddi surətdə əhəmiyyət verənlər, Azərbaycan müsəlmanlarının cinayətkar ünsürlərin zülm və sitəmi altında məhv edilmələrinə razı olmayanlar və Azərbaycanın qoparılmaz bir qismi olan ümum Qarabağ müsəlmanlarının daim qorxu altında yaşayıb da, yedikləri, içdikləri, güzəran və məişətləri haram olmağına soyuq nəzərlə baxmayanlar... bu məsələni tezlik ilə bu tövr, ya o tövr həll və fəsl etmək üçün Andranikin kim olduğunu, yəni simayi-siyasiyyəsini, məmuriyyətini, kimin tərəfindən bu əmrə məmur olduğunu bilib, bu cürə vəhşi hərəkətlər vasitəsilə təqib edilən, məqsədlərin mənayi-həqiqisindən lazımınca xəbərdar olmalıdırlar".

Qaniçən bir quldur olan Andranik ermənilərin "Qnçaq", daha sonra isə "Daşnaksütyun" partiyasının üzvü kimi Osmanlı imperiyasına xəyanət yolu tutmuşdu. 1890-cı illərdə türk ordusuna qarşı döyüşlərdə iştirak etmişdi. 1904-cü ildə erməni üsyanı yatırıldıqdan sonra bir müddət Qafqazda olmuş, sonra isə Avropaya getmişdir. 1907-ci ildə Bolqarıstanda "Daşnaksütyun"un IV qurultayında iştirak etmişdir. 1912-ci ildə müharibə başlayanda Qaregin Njde ilə birlikdə ermənilərdən ibarət könüllü dəstə yaratmış, yerli türk əhalisinə qarşı kütləvi qırğınlar törətmişdir.

Üzeyir bəy bildirir ki, 1918-ci il iyunun 4-də Osmanlı imperatorluğu ilə yeni elan edilmiş Cənubi Qafqaz respublikaları arasında bağlanan və ərazi bölgüsünü nəzərdə tutan Batum müqaviləsinin şərtlərini Andranik qəbul etmir. Ermənistan torpaqlarının Ərzurumu, Vanı, Bitlisi və Muşu da əhatə etməsi iddiasını irəli sürür. Bu şərtlər rədd edildikdən sonra Andranik Şərqi Anadoludakı qətliamlarını Culfada, Naxçıvanda və Zəngəzurda davam etdirməyə başlayır. Türk ordusu Naxçıvanı və Culfanı tutduqdan sonra Zəngəzura qaçır. Burada da kütləvi qətliamlar həyata keçirir. Azərbaycan Xalq Cümhuriyyəti İrəvan hökumətinə bütün bu faciələrə görə etiraz edəndə hökumət həmin qanunsuz dəstələr üzərində hakimiyyətinin olmadığını bildirir, cavabdehliyi özlərindən uzaqlaşdırır. Yazıda oxuyuruq: "...Biz dəxi bu cürə hərəkətləri cismani qüvvələrimiz ilə durdurmağa müqtədir olduğumuzu lazım olan dərəcəyə qədər bildirməliyik. Andraniklər dəxi türklər gedəndən sonra baş qalxızıb zənn etməsinlər ki, biz qoşunsuz və əsgərsiz qalmışıq. Lazım olan yerdə hamımızın əsgər olduğumuzu andraniklər içində bilənlər yox deyil, zənn edirəm. Fəqət bir bu qədər tökülən qanlardan sonra bəşəriyyət artıq zara gəlib sülh, sülh deyə sevindiyi halda, bu sülh axşamı bir də təkrar qan tökmək igidlik deyil, rəzalətdir... Bu cürə vəhşi hərəkətlər icrası ilə erməni millətinə xoş gəlməyi qəsd edən andraniklər, zənn edirəm ki, səhvdədirlər".

"Andranikin məsələsi" məqaləsində Üzeyir bəy minlərlə azərbaycanlını qılıncdan keçirən, kəndlərimizi dağıdan bu quldurun kimliyini, ona dəstək verən qüvvələrin məkirli niyyətlərini aydınlaşdırmağa çalışır. Onun belə qanlı əməlləri ilə Ermənistan rəhbəri olmaq istəyini, yaxud 1918-ci ildə müstəqilliyini elan etmiş Ararat hökumətinin casusu olmasını mümkün ehtimallar kimi nəzərdən keçirir. Hesab edir ki, bu cür təxribatlar, Azərbaycana qarşı əsassız ərazi iddiaları müstəqil surətdə yaşamaq üçün özlərində qabiliyyət və istedad görmədiklərindən qonşuların da müstəqil yaşamasını istəməyən erməni daşnaklarının andraniklər vasitəsilə qəsdən şuluqluq salıb Azərbaycanın yenidən qəyyumlar əlinə keçməsi məqsədindən irəli gəlir.

Azərbaycan Xalq Cümhuriyyətinin və o dövrdə bölgədə olan ingilis komandanlığının belə bir cinayətkarla danışıqlar aparmasını siyasi baxımdan lüzumsuz sayan Üzeyir bəy hesab edir ki, "bu insanlara qarşı ən düzgün davranış özünü də, dəstəsindəki digər quldurları da məhkəmə qarşısına çıxarıb layiq olduqları cəzaya çatdırmaqdır".



### Daşnak üslubu: məkrli niyyət mətbuat səhifələrində

30 oktyabr 1918-ci ildə Osmanlı imperiyası ilə Antanta dövlətləri arasında imzalanmış Mudros müqaviləsindən sonra ingilis hərbi qüvvələrinin komandanı general Tomson Bakıya gəlir və AXC hökumətini tanıyır. Yeni siyasi vəziyyət Andranikin törətdiyi qırğınların qarşısını alır. General Tomson Andranikin Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edir. Beləliklə də Qarabağı Ermənistana birləşdirmək planı baş tutmur.

Bölgədə vəziyyətin nizama salınması, erməni təxribatlarının əngəllənməsi üçün Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları daxil olmaqla müvəqqəti general-qubernatorluq yaradılır. Qeyd edək ki, bu da Üzeyir bəyin yazılarında irəli sürdüyü əsas təkliflərdən idi. General qubernator vəzifəsinə Xosrov bəy Sultanov təyin olunur. Üzeyir bəy Hacıbəylinin yazılarından oxuyuruq ki, bu idarəetmə subyekti bütün çətinliklərə baxmayaraq, vəziyyətə nəzarətin təmin olunması, daşnakların törətdikləri qırğınların dayandırılması, bölgənin mərkəzi hökumətə tabe etdirilməsi, Azərbaycan parlamentinin qəbul etdiyi yeni qanunların burada icrası səmtində xeyli işlər görür. Amma erməni təxribatları yenə ara vermir, zəhərli fəaliyyət bu dəfə mətbuat səhifələrinə keçir. Özlərini dünya ictimaiyyətinə məzlum görkəmdə təqdim etməyə əsrlərdən bəri adət etmiş, bu rolu mənimsəmiş, xüsusi bacarıqla oynayan ermənilər Azərbaycan əsgərlərinin guya erməni kəndlərində qətl-qarətlə məşğul olması barədə şayiələr uyduraraq bunları nəzarətlərindəki qəzetlərdə tirajlamağa başlayırlar. "Naşe vremya", "Vperyod" kimi daşnak qəzetləri Qarabağ ermənilərini Azərbaycan hökumətinə qarşı üsyana çağırırlar.

Üzeyir bəy qəzetin 23 yanvar 1919-cu il tarixli 95-ci nömrəsində dərc edilmiş "Fitnələr qarşısında" adlı məqaləsində bu xüsusda yazırdı: "Daşnakların andraniklər vasitəsilə üzərimizə atılan top və tüfəng güllələrini dəf etmək bunların iftira və böhtanlarını rədd etmək işindən çox asandır. Çünki ermənilər cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustalığı ilə məşhurdurlar".

O, bütün bu təxribatların arxasındakı məkrli niyyətləri fəhmlə izah edir. Erməni hökumətinin, daşnakların öz mənfur planlarını yerinə yetirib Qafqaz regionunu yenidən yadlara təslim etməkdən ötrü Azərbaycanı müharibəyə çəkməyə çalışdıqlarını göstərir.

Ü.Hacıbəylinin bu məqaləsindən ermənilərin general Tomsonun şəxsində İngiltərə hökumətinə qarşı da hücumlara başladıqları açıqlığı ilə aydınlaşır. Andranikin bölgədən qovulmasının qisasını almaqdan ötrü mənfur qonşularımızın öz qəzetlərində hərəkətə keçdikləri başa düşülür: "Top və tüfəng ağzından çıxan güllələr daşnak və əmsali ağzından çıxan söyüş və yalan sözlər ilə əvəz edilibdir. İftira, böhtan və əsassız ittihamlardan ibarət olan bu sözlər zatən general Tomsona qarşı bir nümayişdir. Yəni ey general Tomson, sən ki bizim andraniklərimizi dayandırmağa məcbur etdin, indi gör Azərbaycan müsəlmanları bizim başımıza nə oyunlar açırlar, nə zülmlər edirlər. Halbuki bunun təqsiri sənin boynuna gəlir, çünki bu işdə ehmallıq edən və Azərbaycan türklərinə "cürət" verən sənsən! Bugünkü nömrəmizdə tərcümə edilmiş olan Şuşa erməni komitəsi nümayəndələrinin "şikayəti" mülahizə edildiyi üzrə azərbaycanlıların "zülmündən" və general Tomsonun "qeydsizliyindən"dir. Lakin zənn etmirik ki, bu "şikayətnamə" müttəfiqlər komandası rəisinə ermənilərin arzu etdiyi təsiri "bəxş" edib də "məzlumların" halına can yandırtsın. Tomsonlar erməni "şikayətlərini" Londra mühafilində dinləmirlər ki, inanmamağa həqləri olsun. Tomsonlar Qafqazdadırlar, işin içindədirlər. Kimin kimdən şikayət etməyə həqqi olduğunu görürlər. Görməsə idilər andraniklərin həddini özünə bildirməzdilər".

Üzeyir bəy digər yazısında - "Qarabağ haqqında" məqaləsində *("Azərbaycan", 30 yanvar, 1919, №101)* o dövrdə yenicə formalaşan milli ordumuzun gücünə güvənərək vurğulayır ki, əgər erməni hökuməti Azərbaycan Xalq Cümhuriyyəti ilə müharibə edərsə, öz halının fəna olacağına heç bir şübhə yoxdur. Amma Azərbaycan heç bir halda müharibə niyyətində deyil: "Biz öz daxili islahat işlərimiz ilə məşğuluq. Müharibə etmək istəsəydik əlimizdə böyük bəhanəmiz dəxi vardı. Halbuki indi müharibəyə heç bir tərəfin heç bir bəhanəsi yoxdur". Burada müəllif bir zamanlar Andranik kimi quldurların guya onlara heç bir aidiyyətinin olmadığını söyləyən Ermənistan hökuməti rəsmilərinin ikiüzlü siyasətini də ifşa edir: "Ararat hökuməti şükür eləsin ki, biz onun "Andranikin bizə dəxli yoxdur" sözünə inanıb da Andraniki xudsər bir quldur sifəti ilə torpağımızdan rədd etdik. İndi də o quldurun hərəkati-vəhşiyanəsindən dolayı əhalimizə varid olan zərər və ziyanları rəf etmək işilə məşğuluq. Əgər bizim bu işimizdən erməni cümhuriyyətinə və erməni "ərazisinə" bir xələl edirsə, bu xüsusda dəlillərini meydana qoyub müzakirəyə girsinlər. Yoxsa gözü yummadan protest etmək və ya müharibədən söz salmaq fitnə və pravokatorluqdan başqa bir şey deyildir".

Üzeyir bəyin "Başlanır" adlı məqaləsindən *("Azərbaycan", 13 fevral 1919, №113)* isə belə məlum olur ki, erməni təxribatçıları o dövrdə - xüsusilə Paris Sülh Konfransı zamanı Azərbaycanı, hətta imperializm siyasətində belə ittiham etməyə başlayıblarmış. Paris Sülh Konfransı Birinci Dünya müharibəsindən sonrakı dünyanın taleyini həll etmək məqsədi ilə Antanta ölkələri və ABŞ-ın Parisdə çağırdıqları, 18 yanvar 1919-cu il tarixindən 21 yanvar 1920-ci ilə qədər davam edən siyasi tədbir idi. Burada 27 ölkə təmsil olunurdu.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Paris Sülh Konfransında iştirakı bu dövrün beynəlxalq münasibətlərində mühüm yer tuturdu. Azərbaycanın xarici siyasətinin başlıca məqsədi ölkənin müstəqilliyinin gerçəkləşməsindən ibarət idi. Erməni nümayəndələrinin pozuculuq fəaliyyəti isə bu məsələnin müsbət həllinə mane olurdu. Onlar suverenliyin tanınmasından daha çox ərazi-sərhəd məsələsinə əhəmiyyət verir, Qafqazdakı real vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar. Erməni təbliğatının əsas hədəfi Osmanlı dövləti və Azərbaycan idi. Öz torpaqları üzərində nəzarəti təmin edən Azərbaycanın imperializm siyasətində günahlandırılması da ermənilərin öz mətbuat orqanlarında yaydıqları təxribatlardan biri idi. Üzeyir bəy onların bu təxribatına belə cavab verirdi: "Bizim öz yerlərimizə sahib olmaq əməlimizi daşnaklar "imperializm məqsədi" deyə adlandırırlar. Çünki Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın yerləri ermənilərin imiş?! Və o qədər mübahisəli imiş ki, onun həllini Paris Konfransından gözləmək lazım gəlirmiş.

Lakin Qarabağ məsələsinin həllini Paris Sülh Konfransından gözləmək icab etdiyini safdərunlar nəzərində "sülhcuyanə" görünmək məqsədilə ortaya atan daşnaklar bizi inandıra bilməzlər ki, o konfransın hökmünə tabe olub da bir kərəlik kiriyəcəklər".

Amma erməni nümayəndə heyətinin Parisdə, erməni mətbuatının isə öz səhifələrində apardığı təxribatçı fəaliyyət bir səmərə vermədi. 1920-ci il yanvarın 11-də Lord Kerzonun təklifi ilə Paris Konfransının Ali Şurasında Azərbaycan və Gürcüstanın istiqlalını de-fakto tanımaq haqqında yekdilliklə qərar qəbul olundu.

### Daha bir fitnə ocağı

Üzeyir bəyin məqalələrində erməni xalqını mənfur niyyətlərə, pis əməllərə sürükləyən daha bir fitnə ocağı da nişan verilir. Bu, XX əsrin əvvəllərinə qədər dünyanın ayrı-ayrı ölkələrinə mühacirət etmiş ermənilərin yaratdıqları lobbidir. Böyük yazarın məqalələrində erməni lobbisinin Azərbaycana qarşı fitnəkar siyasətdə fəal iştirakından bəhs edilir. "Azərbaycan" qəzetinin 22 dekabr 1919-cu il nömrəsində işıq üzü görmüş "Miralay Haskelin təklifi" adlı məqaləsində Amerikanın Cənubi Qafqazda baş verən proseslərlə bağlı mövqeyinin formalaşmasında, ermənilər haqqında yanlış olaraq məzlum millət təsəvvürünün yaranmasında və onlara Amerikadan ianələrin göndərilməsində lobbinin rolu xüsusi vurğulanır. Amma Üzeyir bəy onu da göstərir ki, erməni hökumətinin başında duranların kütbeyinliyi bu yanlış təsəvvürləri tezliklə alt-üst edir. Regiondakı vəziyyəti araşdırmaq üçün Cənubi Qafqaza gələn xarici nümayəndə heyətləri bölgənin sülh və təhlükəsizliyinə ən böyük təhdidin daşnaklardan gəldiyinə, erməni hökumətinin fitnəkar siyasətindən qaynaqlandığına özləri də şahid olurlar.

Maraqlı məqalələrdən biri də "Kontrast" adlanır *("Azərbaycan", 11 sentyabr 1919, №271).* Bu yazıda müəllif daşnakların, erməni hökumətinin fitnəkar siyasətini ifşa edərək yazır ki, Avropaya yalvarmağı, diplomat qapılarında sülənməyi öz qonşusu və vətəndaşı ilə insaf və mürvətlə davranmaqdan üstün tutan erməni başbilənləri bu cür siyasətlə ən böyük ziyanı öz xalqına, camaatına vurur: "Onların erməni xalqını öz əllərində oyuncaq kimi oynatmağı, keyfi istədiyi yerdə cəmaətin canını, malını, namusunu və heysiyyatını fəda etməsi nə qədər təəccüb isə erməni cəmaətinin də tamam qoyun sürüsü kimi öz müqəddəratını və öz varlığını bu ziyankar partiyaya tapşırıb da bu yolda bir bu qədər ya sədaqət və ya qorxaqlıq və cəbunluq göstərməsi bir o qədər şayani-heyrətdir. Görünür bu partiya erməni xalqını o qədər "terror"layıb və o qədər gözünün qorxusunu alıbdır ki, birinin də ağız açmağa cürəti qalmayıbdır".

Üzeyir bəy "millət xadimi" olan daşnakların bu xalqı artıq etibarsız bir hala gətirdiklərini, onlara inamın qalmadığını, ona görə də "gözlərimizi hər zaman dörd açmalı" olduğumuzu zəruri sayır. "Azərbaycan" qəzetində dərc edilmiş "Kirimiyorlar" *(14 aprel 1919, №157)* adlı məqaləsində qeyd edilir ki, hər bir halda Qarabağ ermənilərinin asayiş və rahatlıq içində yaşaması öz davranışlarından asılıdır: "Məhəlli hökumətə tabe olub da öz işgücləri ilə məşğul olarlarsa, rahat yaşarlar. Yox əgər daşnak və əmsali təşviqatına uyub da Azərbaycan hökumətini tanımamaq və qəsdən iğtişaş salmaq istəsələr, o halda yaman güzəran keçirmələrinə səbəb özləri olarlar".

Ədib ermənilərin Azərbaycanla eyni vaxtda dövlət müstəqilliyini elan etmiş Gürcüstana müharibə təxribatlarından, bu ölkəyə qarşı ərazi iddialarından, sərhədlərin dəqiqləşdirilməsi məsələsində tutduğu təxribatçı mövqedən də yazır. Açıq mətnlə göstərir ki, Cənubi Qafqazda sülhün, sabitliyin, demokratik inkişaf mühitinin bərqərar olmasına maneçilik törədən əsas əngəl məhz Ermənistan hökumətidir. "Azərbaycan" qəzetinin 12 oktyabr 1919-cu il tarixli, 293-cü nömrəsində dərc olunmuş "Səmimiyyət lazım" sərlövhəli məqaləsində bu barədə yazır: "Qafqazlılara burası gözəlcə məlumdur ki, Gürcüstan, Ermənistan və Azərbaycan arasındakı ixtilaflı hüdud məsələlərini itlaf və müvafiqət mütəqabilə yoluylə həll etmək üçün Azərbaycan və Gürcüstan tərəfindən dəfələrlə vaqe olan təklifləri rəddilə Qafqaz millətlərinin istirahət və asayişini xələldar edən Ararat hökuməti idi. Gürcülər üzərinə müharibə açan, Qarabağı qan ocağına döndərmək istəyən, "türklər düşməni-əbədimizdirlər" deyən erməni-müsəlman arasında daimi bir xüsumət ibqasına çalışan Naxçıvan, Şərur, Sürməli fəcayeyi-rəzilanəsini yapan və yapdıran bir hökumətin itlaf və müvafiqət meylinin səmimiliyinə etibar etmək mümkündürmü?"

Üzeyir bəy Ermənistanla Gürcüstan arasındakı müharibə durumunda Azərbaycanın tutmalı olduğu mövqeyə diqqət yönəldir və bu məsələdə ölkəmizin milli təhlükəsizlik maraqlarından çıxış edir. Bildirir ki, daşnakların bölgədə "təkrar-təkrar yandırdıqları odun evimizə keçməməsi üçün" Azərbaycan hökuməti ilk növbədə öz sərhədlərinin möhkəmləndirilməsi barədə düşünməlidir.

*(ardı var)*

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# 6 mindən çox istehlakçının işıq problemi həll olunub

**Abşeron rayonu Masazır və Məhəmmədi qəsəbələrində, eləcə də Xırdalan şəhərinin bəzi hissələrində əvvəllər yaranmış qısa fasilələr tam aradan götürülərək istehlakçılar dayanıqlı və keyfiyyətli elektrik enejisi ilə tam təmin olunublar.**



Masazır və Məhəmmədi qəsəbələrinin əhali istehlakçı qruplarının elektrik enerjisi təchizatının dayanıqlı və keyfiyyətli olması ilə əlaqədar yeni inşa olunmuş 35/10 kV-luq "Məhəmmədi" və "Masazır" yarımstansiyalarından adıçəkilən qəsəbələrin əlaqələndirici xətləri yeniləndi: "Əhali istehlakçı qrupları qeyri-əhali istehlakçı qruplarından ayrılaraq 24 saatlıq dayanıqlı fasiləsiz elektrik enerjisi təchizatı ilə təmin olundular". Bu ərazilərdə hava şəraiti imkan verdikcə son aylarda əlaqələndirici xətlər yenilənərək 400-ə yaxın dayaqlar dəmir beton dayaqlarla əvəzlənib. Hava elektrik verilişi xətləri yeraltı kabel xətləri və xüsusən özünü daşıyan izolyasiya kabel xətləri ilə əvəzlənib. Məhəmmədi qəsəbəsinin 2 mindən çox, Masazır qəsəbəsinin isə 4 mindən çox istehlakçıları dayanıqlı və keyfiyyərli elektrik enerjisi ilə təmin olunublar.

Yeni Saray, Mehdiabad və Ceyranbatan qəsəbələrində də yeni inşa olunmuş 35 kV-luq yarımstansiyalarda əlaqələndirici xətlər yenilənir. Nəticədə əvvəllər yaranmış qısa fasilələr tam aradan götürüləcək, istehlakçılar dayanıqlı və keyfiyyətli elektrik enejisi ilə tam təmin olunacaqlar.

***"Azərbaycan"***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 14 noyabr 2018-ci il tarixdə 2 LOT açıq tender üsulu ilə keçirilən müsabiqədə tenderin əsas şərtlər toplusunun tələblərini və qiymətləndirmənin nəticələrini nəzərə alaraq, keçirilən tenderdə iştirak etmiş şirkətlər arasında

LOT 1. "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" olan stansiyasında asma tavanın quraşdırılması və stansiyanın işıqlandırılma işlərinin satın alınması üzrə "NİMEX" MMC ƏDV daxil 1414245.99 (bir miliyon dörd yüz on dörd min iki yüz qırx beş manat 99 qəpik) manat məbləği ilə

LOT 2. N.Nərimanov adına elektrik deposu ərazisində yerləşən A-12 yarımstansiyası üçün güc kabellərinin satın alınması üzrə tender predmeti üç şirkət arasında bölünüb.

"STP" MMC ilə 452.739,21 (dörd yüz əlli iki min yeddi yüz otuz doqquz manat 21 qəpik) manat, "İnterkabel" firması ilə 182.728,07 (yüz səksən iki min yeddi yüz iyirmi səkkiz manat 07 qəpik) manat və "Göknur Bakı" MMC 177.619,07 (yüz yetmiş yeddi min altı yüz on doqquz manat 07 qəpik) manat ƏDV daxil məbləğlərlə Tender komissiyasının qərarı ilə bu LOT-lar üzrə qalib elan olunmuşlar.

Qalib gəlmiş təşkilatlar ilə 03, 04 və 05 dekabr 2018-ci il tarixlərdə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Bununla bildiririk ki, 20 noyabr 2018-ci il tarixdə **"Bakı Metropoliteni" QSC Binəqədi rayonu Xocasən Sağlamlıq Mərkəzinin ərazisində və "Bakmil" stansiyasının qarşısında abadlıq işlərinin satın alınması üzrə açıq tender** üsulu ilə keçirilən müsabiqədə tenderin əsas şərtlər toplusunun tələblərini və qiymətləndirmənin nəticələrini nəzərə alaraq, tenderdə iştirak etmiş şirkətlər arasında **"TƏMƏL-M" firması ƏDV daxil 195686.52 (yüz doxsan beş min altı yüz səksən altı manat 52 qəpik) manat** məbləği ilə Tender komissiyasının qərarı ilə bu LOT üzrə qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 03.12.2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Turizm Agentliyi tərəfindən Bakı şəhərində iki turist informasiya məntəqəsinin yaradılması üzrə işlərin satın alınması ilə əlaqədar 31 oktyabr 2018-ci il tarixdə elan edilmiş təkliflər sorğusu üzrə komissiyanın 19.11.2018-ci il tarixli yekun protokoluna əsasən "Vörkpleys interiors" MMC şirkəti qalib elan olunmuş və 03.12.2018-ci il tarixdə şirkətlə müqavilə imzalanmışdır.

**Əlaqələndirici şəxs: Vüsalə Əliyeva**
**Əlaqə üçün telefon: 012 492 87 13**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Turizm Agentliyi tərəfindən ölkə miqyasında əsas turizm marşrutlarının istiqamətləndirilməsi və nişana alınması işlərinin satın alınması ilə əlaqədar 01 noyabr 2018-ci il tarixdə elan edilmiş təkliflər sorğusu üzrə komissiyanın 19.11.2018-ci il tarixli yekun protokoluna əsasən "Signes" şirkəti qalib elan olunmuş və 03.12.2018-ci il tarixdə şirkətlə müqavilə imzalanmışdır.

**Əlaqələndirici şəxs: Vüsalə Əliyeva**
**Əlaqə üçün telefon: 012 492 87 13**

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Rusiya OPEC-ə güzəşt etmədi

Rusiya OPEC+ sazişi çərçivəsində neft hasilatını gündə 150 min bareldən çox azaltmağa hazır deyil. Bu barədə ölkənin energetika naziri Aleksandr Novak məlumat vermişdir.



Rusiya tərəfinin əsas arqumenti ondan ibarətdir ki, qış dövründə hasilatı bundan artıq azaltmaq çətindir. Eyni zamanda Moskva gələcəkdə digər şərtləri müzakirə etməyə hazırdır. Gündə 150 min barellik azaltma 2019-cu ilin ilk üç ayı ərzində qüvvədə olacaq.

Xatırladaq ki, bundan əvvəl OPEC+ (OPEC-in üzvləri və 11 müstəqil ölkə) sazişinin iştirakçıları Moskvadan gündəlik hasilatı 300 min barel azaltmağı təkid edirdi.

## Fransada 700-dən çox tələbə tutuldu



Fransada keçirilən orta təhsil sistemi islahatlarına qarşı dördüncü aksiya zamanı hüquq mühafizə orqanları tərəfindən 700-dən çox şagird və tələbə saxlanmışdır. Bu barədə Daxili İşlər Nazirliyinə istinadən "Frans Press" agentliyi xəbər verir.

Məlumata görə, 280 təhsil müəssisəsinin işi pozulmuşdur. Onlardan 45-i fəaliyyətini dayandırmışdır.

BFM telekanalı xəbər verir ki, ölkədə azı 200 məktəb və liseyi etiraz aksiyaları bürümüşdür. Mitinqçilər bəzi liseylərin qarşısında avtomobilləri yandırmışlar. Xoşagəlməz hadisələrə yol verməmək üçün bir sıra təhsil müəssisələri bağlanmışdır. Məktəblilərin nümayişlər zamanı təhlükəsizliyini təmin etmək məqsədilə bəzi aksiyalarda onların valideynləri də iştirak edirlər.

Tələbələr bakalavr dərəcəsi üçün imtahan verilməsi qaydalarından, habelə aldıqları biliyin onlara uğurlu əmək fəaliyyəti təmin etmədiyindən narahatdırlar. Bundan əlavə, valideynlərin də geniş dəstəklədiyi tələblərdən biri uşaqların məktəblərdə təhlükəsizliyini təmin etmək və onları narkotacirlərin hərəkətlərindən müdafiə etməkdir.

Lisey və məktəb şagirdlərinin etirazlarına tələbələr də qoşulmuşlar. Onlar Parisdə Sorbonna Universitetinin iki şöbəsinin işini dayandırmışlar.

## Sudan və Misir Liviya ilə sərhəddə monitorinq missiyası yaradır



Sudan və Misir Liviya ilə sərhəd boyu fəaliyyət göstərməsi planlaşdırılan birgə monitorinq missiyasını təsis etmək niyyətindədirlər. Məqsəd münaqişənin bürüdüyü ölkədən qanunsuz adam və silah daşınmasının qarşısını almaqdır. Bu barədə Sudanın Rusiyadakı səfiri Nadir Babikər məlumat vermişdir.

Səfir qeyd etmişdir ki, "sərhədimizi mühafizə etmək və ərazimizdən qanunsuz adam daşınması üçün istifadə edən şəxslərin və terrorçuların qarşısını almaq üçün Misirlə birgə müşahidə ordusu, yaxud müşahidə qüvvələri yaratmağı planlaşdırırıq". Diplomat ümidvar olduğunu bildirmişdir ki, bu səylər Liviyada vəziyyəti düzəltməyə kömək edəcək.

Xatırladaq ki, 2011-ci ildə Liviya lideri Müəmmər Qəzzafinin qətlindən sonra ölkədə siyasi böhran başlamışdır. Hazırda orada ikihakimiyyətlilik hökm sürür.


Azercell

## abunəçilərinin nəzərinə

**09.01.2019-cu il tarixdən etibarən bəzi İnternet paketləri ilə bağlı aşağıdakı dəyişiklik tətbiq ediləcək:**

- "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində mövcud olan "4GB=9AZN" həcmli İnternet Paketi ləğv edilir. Həmin tarixdən sonra qeyd olunan paketə abunəlik dayandırılacaq, mövcud nömrələrdə abunəlik yenilənməyəcək və müvafiq 30 günlük istifadə müddəti bitənədək həmin paketdən istifadə davam edəcək. Bu 30 günlük istifadə müddəti bitdikdən sonra digər həcmli İnternet paketlərinə keçid etməyən və ya müvafiq paketə abunəliyi dayandırmayan nömrələrdə avtomatik olaraq "4GB=9AZN" paketi "5GB=8AZN" paketi ilə əvəz ediləcək;
- "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sistemində mövcud olan "18GB=24AZN" həcmli İnternet Paketi ləğv edilir. Həmin tarixdən sonra qeyd olunan paketə abunəlik dayandırılacaq, mövcud nömrələrdə abunəlik yenilənməyəcək və müvafiq 30 günlük istifadə müddəti bitənədək həmin paketdən istifadə davam edəcək. Bu 30 günlük istifadə müddəti bitdikdən sonra digər həcmli İnternet paketlərinə keçid etməyən və ya müvafiq paketə abunəliyi dayandırmayan nömrələrdə avtomatik olaraq "18GB=24AZN" paketi "10GB=15AZN" paketi ilə əvəz ediləcək;
- "Azercell Telekom" MMC-nin həm fakturasız (SimSim) xətt, həm də fakturalı xətt sistemində mövcud olan "100MB=2AZN" həcmli İnternet Paketi ləğv edilir. Həmin tarixdən sonra qeyd olunan paketə abunəlik dayandırılacaq, mövcud nömrələrdə abunəlik yenilənməyəcək və müvafiq 30 günlük istifadə müddəti bitənədək həmin paketdən istifadə davam edəcək. Bu 30 günlük istifadə müddəti bitdikdən sonra digər həcmli İnternet paketlərinə keçid etməyən və ya müvafiq paketə abunəliyi dayandırmayan nömrələrdə avtomatik olaraq "100MB=2AZN" paketi "60MB=1AZN" paketi ilə əvəz ediləcək.
- Eyni zamanda "Azercell Telekom" MMC-nin fakturalı və fakturasız xətt sistemində mövcud olan nömrələr üçün 50 MB həcmli aylıq adlı İnternet paketinin istifadə müddətində və həcmində dəyişiklik tətbiq olunacaqdır. Belə ki, həmin paketin həcmi artırılaraq 60 MB, istifadə müddəti isə 15 təqvim günü kimi tətbiq ediləcək. İstifadə müddəti ərzində istifadə edilməmiş internet trafiki növbəti dövrə keçirilmir. Bu 15 günlük müddət bitdikdən sonra fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin balansında kifayət qədər vəsait olduqda abunəlik avtomatik davam etdirilir. Balansda kifayət qədər vəsait olmadıqda, istifadə müddətindən sonrakı 30 gün ərzində balansda həmin paketə abunəliyin davam etməsi üçün kifayət qədər vəsait olduqda müvafiq haqq tutulmaqla abunəlik avtomatik olaraq davam etdirilir, kifayət qədər vəsait olmasa, paketə abunəlik ləğv edilir. Fakturalı xətt sisteminə aid nömrələrdə isə həmin internet paketinə abunəlikdən imtina edilməyənədək hər istifadə müddətinin sonunda yenilənərək, hesablanmış xidmət haqqı digər xidmət haqları ilə yanaşı öz əksini müvafiq dövrün sonunda kəsilən hesab fakturasında tapır. Fakturalı xətt sisteminə olan nömrənin xətti ikitərəfli bağlandıqda, sistem sonrakı 30 gün ərzində xəttinin statusunu yoxlayır, xətt açılarsa, abunəlik davam etdirilir, dəyişiklik olmasa, abunəlik ləğv edilir. 09.01.2019-cu il tarixədək 50 MB-lıq aylıq İnternet paketinə abunəlik mövcud olan nömrələrdə müvafiq 30 günlük istifadə müddəti bitənədək həmin paketdən istifadə davam edəcək. Bu 30 günlük istifadə müddəti bitdikdən sonra digər həcmli İnternet paketlərinə keçid etməyən və ya müvafiq paketə abunəliyi dayandırmayan nömrələrdə avtomatik olaraq "50MB=1AZN" (30 günlük istifadə müddəti) paketi, "60 MB=1AZN" (15 günlük istifadə müddəti) paketi ilə əvəz ediləcək.

**Qeyd:** *Abunəçilər göstərilən dəyişikliklər, Tarif və İnternet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.*


# Ölkə ərazisində arabir yağış yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, dekabrın 8-də Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Şimal küləyi əsəcək. Havanın temperaturu gecə 7-9°, gündüz 9-11° isti təşkil edəcək.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində arabir yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman müşahidə olunacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° isti, dağlıq ərazilərdə 4-6° şaxta, gündüz 6-11° isti olacağı proqnozlaşdırılır.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında arabir yağış, bəzi yerlərdə isə qar yağacağı, duman olacağı gözlənilir. Gündüz əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-7° isti təşkil edəcəyi bildirilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7° isti, gündüz 8-11° isti təşkil edəcəyi bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Səhər zəif duman gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5° isti, gündüz 6-10° isti, dağlarda gecə 1-6° şaxta, gündüz 0-5° isti olacaq.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir yağış yağacağı, gündüz əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Səhər ayrı-ayrı yerlərdə duman müşahidə olunacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-7° isti, gündüz 8-13° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında arabir yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 7-9°, gündüz 9-11°, dağlarda gecə 2-5°, gündüz 5-9° isti təşkil edəcək.

"Coffee House - 28 Mall" MMC-yə məxsus Nizamnamə və Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş Dövlət Reyestrindən Çıxarış (№ 1801020009195800) itdiyi üçün etibarsız sayılır.

"Coffee House - GANJA Mall" MMC-yə məxsus Nizamnamə və Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş Dövlət Reyestrindən Çıxarış (№ 1801020015038900) itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası **NURƏDDİN KAZIMOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası **NURƏDDİN KAZIMOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası **NURƏDDİN KAZIMOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elxan Allahverdiyev və Binəqədi Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası **NURƏDDİN KAZIMOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası **NURƏDDİN KAZIMOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan İnzibati-İqtisadi Məhkəməsinin sədri Mehman Nuriyev və məhkəmənin kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası **NURƏDDİN KAZIMOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3622